

Milli azadlıqdan
şirin nemət yoxdur!

**İlham Əliyev** @azpresident

8 noyabr Şanlı Qələbə Günü kimi əbədi tarixə düşəcək. Biz Şuşaya qayıtmışıq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır! Gözün aydın olsun, Azərbaycan!

Translate Tweet

1:56 PM · Nov 8, 2020 · Twitter Web App

**İlham Əliyev** @azpresident

ƏZİZ ŞUŞA, SƏN AZADSAN! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Qarabağ bizimdir! QARABAĞ AZƏRBAYCANDIR!

Translate Tweet

1:56 PM · Nov 8, 2020 · Twitter Web App




YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

8 noyabr 2024-cü il, cümə
№ 207 (6793)
Qiyməti 60 qəpik

# Azərbaycan Zəfər marşındadır!



Bax səh. 3

# Zəfər ayının müəllifləri

Bax səh. 3




Bax səh. 4-5

# YAP-ın təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib

## İqtisadi potensialın güclənməsi üçün yeni imkanlar yaranıb

Azərbaycanın ərazi bütövlüyünün bərpasından sonra iqtisadi potensialının güclənməsi üçün yeni imkanlar yaranıb. Hazırda həyata keçirilən müasir inkişaf ideologiyasına əsaslanan yeni sosial-iqtisadi artım modeli iqtisadiyyatın qarşıdakı illərdə daha da böyüməsi üçün dərin zəminlər hazırlayır. İqtisadiyyat Nazirliyinin şöbə müdiri Hüseyn Hüseynov "Yaşıl iqlim maliyyəsi və karbon qiymətqoyma siyasəti"...

Bax səh. 6

## Məskunlaşma və nəhəng quruculuq meydanı

Böyük Qayıdışın təməlinin qoyulduğu Cəbrayılın Cocuq Mərcanlı kəndindən başlayan doğma yurda geridönüşün 2020-ci ildə qazanılmış Zəfərdən cəmi 2 il sonra Zəngilan rayonunda inşa edilmiş "ağıllı kənd"ə köçlə yeni səhifəsi açılıb. 30 ilə yaxın məcburi köçkün həyatı yaşayan insanların mərhələli şəkildə öz doğma dədə-baba yurdlarına qayıdışı geniş vüsət almağa başlayıb. Bu proses sürətlə və fasiləsiz...

Bax səh. 6

## Prezident seçkiləri dolları və səhmləri bahalaşdırdı

ABŞ-da keçirilən prezident seçkilərində Donald Trampın qalib gəlməsi cəmi bir neçə saat sonra həm bu ölkənin özünün, həm də ümumilikdə, qlobal iqtisadiyyatın müxtəlif sektorlarında, ələlxüsus da birjalarda öz siqnallarını verib. Amerikanın aparıcı fond birjalarında istiqraz və bondların, səhmlərin, digər qiymətli kağızların bazar indeksləri əvvəlki günlərlə müqayisədə 2-5 faiz artımlar nümayiş...

Bax səh. 7

## Avropa Komissiyasının rəhbəri nədən və niyə "gizlənir"?

Azərbaycan, qlobal iqlim dəyişikliyi ilə mübarizədə lider ölkələr sırasında yer almaq üçün yalnız regional səviyyədə deyil, beynəlxalq platformalarda da aktiv iştirak edir. Qlobal iqlim müzakirləri, COP təşəbbüsündə önəmli rol oynaması ölkəmizin həm də bu mövzuda beynəlxalq əməkdaşlığa dəstəyini nümayiş etdirir. Azərbaycan COP29 çərçivəsində karbon emissiyalarının azaldılması, təmiz enerji...

Bax səh. 7

# Prezident Böyükşor-Pirşağı yeni avtomobil yolunun açılışında iştirak edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Böyükşor-Pirşağı yeni avtomobil yolunun açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Böyükşor-Pirşağı yeni avtomobil yolunun uzunluğu 12,7 kilometrdir. Yeni yol başlanğıcını Balaxanı qəsəbəsinin ərazisindən (Böyükşor gölü) götürməklə, Digah və Məmmədli qəsəbələrindən keçərək Kürdəxanı və Pirşağı qəsəbələrinə qədər uzanır.

Paytaxtda nəqliyyat axınının tənzimlənməsində böyük rol oynayacaq bu yol 1b texniki dərəcəyə uyğun olaraq ən müasir tələblər səviyyəsində inşa edilib və 6 hərəkət zolağından ibarətdir.

Layihəyə əsasən yolboyu 6 yol ötürücüsü və bir avtomobil keçidi inşa edilib. Bundan başqa, yolboyu 3 yerdə "U" tipli geri dönüş keçidi yaradılıb.

Həm nəqliyyat vasitələrinin, həm də piyadaların ərazidə rahat və təhlükəsiz hərəkətini təmin etmək üçün yeni piyada səkiləri salınıb. Yeni avtomobil yolunun hər iki istiqaməti üzrə velosiped zolaqları salınıb, yolboyu müasir işıqlandırma sistemi quraşdırılıb. Layihəyə uyğun olaraq, ayırıcı zolaqlarda və yol kənarlarında əlavə abadlıq işləri görülüb. Bundan başqa, müasir tələblər nəzərə alınaraq yolun 3-cü kilometrində elektrik avtomobilləri üçün enerjidoldurma qurğuları quraşdırılıb.

Qeyd edək ki, Azərbaycan Prezidentinin sərəncamına əsasən, Bakı şəhərinin perspektiv inkişafı nəzərə alınmaqla Böyükşor-Pirşağı avtomobil yolunun tikintisi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən icra olunub.



Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosialyönümlü siyasətin tərkib hissələrindən biri də müasir yol infrastrukturunun yaradılmasıdır. Son illərdə bu sahədə çox mühüm uğurlar əldə olunub və yeni layihələrin icrası davam etdirilir. Yol infrastrukturunun yenilənməsi ilə bağlı görülən işlər həm ölkə əhəmiyyətli yolları, həm də kənd yollarını əhatə edir. Bütün bu işlər bir daha sübut edir ki, ölkədə həyata keçirilən dövlət siyasətinin mərkəzində vətəndaşlarımızın rahatlığı və sosial vəziyyətinin yaxşılaşdırılması dayanır.

# Bakıda Mərkəzi Parkın üçüncü hissəsi açılıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Bakıda Mərkəzi Parkın üçüncü hissəsinin açılışında iştirak edib.



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına paytaxtın Yasamal rayonu ərazisində yerləşən parkda görülən işlər barədə məlumat verildi.

Qeyd edək ki, Mərkəzi Parkın birinci hissəsi 2019-cu il mayın 22-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə istifadəyə verilib. Parkın ikinci hissəsinin açılışı isə 2022-ci il dekabrın 30-da olub. Prezident İlham Əliyev açılışda iştirak edib.

Bildirildi ki, növbəti mərhələdə isə Mərkəzi Parkın üçüncü hissəsinin 9 hektar ərazisi tam abadlaşdırılıb, burada ən müasir tələblərə uyğun yeni istirahət zonası yaradılıb. Parkın yeni hissəsinin ümumi ərazisi illərdir yığılıb qalmış tullantılardan təmizlənib, torpaq səthi dəyişdirilib və müvafiq aqrotexniki tədbirlər görülüb.

Ümumilikdə parkın bu hissəsinin 7,4 hektarında 19 növdə 3 min 500 ağac, 25 mindən çox gül və kol bitkiləri əkilib. Burada yaşıllaşdırmanın daha səmərəli olması üçün əraziyə 60 min kubmetrə yaxın münbit torpaq tökülüb, müasir suvarma sistemi qurulub.

Mərkəzi Parkın yaşıllaşdırma konsepsiyasının əsas xüsusiyyəti bu istirahət məkanının ilin fəsillərini özündə əks etdirməsidir. Layihənin ən mühüm xüsusiyyətlərindən biri piyadaların Abdulla Şaiq küçəsinin hərəkət hissəsindən keçmədən maneəsiz gediş-gəlişi üçün yeraltı tunelin inşa edilməsidir. Onun inşası ilə Mərkəzi Parkın 1-ci, 2-ci və 3-cü hissələri arasında tam bağlantı yaradılıb. Ərazidə 3 fəvvarə kompleksi inşa edilib, idman qurğuları quraşdırılıb, uşaq əyləncə, həmçinin futbol-basketbol meydançaları, yaşlı insanların asudə vaxtlarının səmərəli təşkili üçün şahmat və stolüstü oyun meydançaları salınıb. Həmçinin burada süni göl və ətrafında söhbətgahlar yaradılıb ki, bu da şəhərimizin qonaqlarının və sakinlərin istirahətlərini daha maraqlı etmək üçün mühüm rol oynayır.





İstirahət parkında müasir işıqlandırma sistemi də qurulub. Ərazinin abadlaşdırılması zamanı burada XIX əsrin sonu-XX əsrin əvvəllərində inşa edilən və yerli sakinlər arasında "Təndir Hamamı" kimi tanınan tarixi-memarlıq abidəsi bərpa edilərək əvvəlki simasına qaytarılıb. Parkın ətrafındakı tarixi və digər yaşayış binaları əsaslı təmir olunub, Süleyman Tağızadə və Nabat Aşurbəyova küçələrinə yeni asfalt örtüyü döşənib, piyada səkiləri və parklanma yerləri yaradılıb, işıq dirəkləri quraşdırılıb və digər işlər görülüb.

Ümumilikdə Mərkəzi Parkın üçüncü mərhələsinin tikintisi yekunlaşdıqdan, ərazidə yeni yaşıllaşdırma və abadlıq işləri görüldükdən sonra Təzəpir məscidi kompleksinin və Süleyman Tağızadə küçəsində yerləşən İmam Hüseyn məscidinin mənzərəsi tam olaraq açılıb.

Beləliklə, Mərkəzi Parkın üçüncü hissəsinin istifadəyə verilməsi ilə keçmiş "Sovetski" adlanan ərazidə salınan parkın ümumi sahəsi 35,4 hektara çatdırılıb və bura paytaxtın ən gözəl istirahət guşələrindən birinə çevrilib.

Xatırladaq ki, Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakı şəhərində həyata keçirilən abadlıq-quruculuq işlərinin həcmi son illərdə daha da artıb. Paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parkların və yeni yaşıllıq zolaqlarının salınması, Bakının qədim tarixi memarlıq nümunələrinin bərpası və müasir binaların tikilib istifadəyə verilməsi ölkəmizdə həyata keçirilən abadlıq-quruculuq işlərinin davamlı xarakter aldığını nümayiş etdirir. Mərkəzi Parkın yeni istifadəyə verilən üçüncü hissəsi də paytaxtımızın daha da gözəlləşməsi, şəhərdə yaşıl guşələrin sayının artırılması və insanların səmərəli istirahəti baxımından mühüm əhəmiyyət daşıyır.

# İlham Əliyevin Bişkekdən dünyaya mesajı



## Dəqiq hədəflər, yeni inkişaf konsepsiyası...

Ötən 15 il ərzində uğurlu iqtisadi-siyasi konsepsiyası və ideoloji əsasları formalaşdırılan, suveren, milli mənafeyə söykənən prinsipləri özünün inkişaf kredosuna çevirən Türk Dövlətləri Təşkilatı mühüm regional status qazanıb. Bu inkişaf tendensiyasında maddi nailiyyətlərlə yanaşı, mənəvi nailiyyətlər də göz oxşayır - vahid iqtisadi-ticari zonanın müəyyənləşdirilməsi uğrunda səylərin göstərilməsi, maraqların uzlaşdırılması vahid Türk dünyasının inkişaf sərhədlərinin geniş olduğunu göstərir. Eyni zamanda, qarşılıqlı maraqların qorunması üçün gücün və imkanların səfərbər olunması prioritet hədəf kimi TDT-nin ali qurum statusunu daha da möhkəmləndirir. Bu mənada, Bişkekdə keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşü xüsusilə yaddaqalan oldu. Bu tədbir ötən 15 ilin hesabatı xarakteri daşımaqla yanaşı, həm də gələcək üçün yeni inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından əhəmiyyət daşıyırdı.

## Qarabağ bəyannaməsi əməkdaşlığın dərinləşməsinə töhfə verir...

Azərbaycanın TDT-nin gələcək inkişafı ilə bağlı yaratdığı geostrateji potensial ölçüyəgəlməzdir - istər bu birliyin daha da möhkəmlənməsi, istər iqtisadi gücünün daha da irəliyə aparılması kimi faktorlar üzərində ölkəmiz təşkilatın strateji yol xəritəsini təqdim edir. Məsələn, bu ilin yayında Şuşada imzalanan Qarabağ bəyannaməsi təşkilatın tarixində yeni bir mərhələ yaratdı. Bişkekdə keçirilən 11-ci Zirvə görüşündə çıxış edən Prezident İlham Əliyev bu nüansa toxunaraq bildirib ki, iyul ayında Şuşa şəhərində keçirilmiş Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə imzalanmış Qarabağ Bəyannaməsi əməkdaşlığın daha da dərinləşməsinə töhfə verir. Azərbaycan Türk Dövlətləri Təşkilatının möhkəmlənməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcək.

Şuşada imzalanan Qarabağ bəyannaməsi Türk dünyasının regionda və dünyada sülh, təhlükəsizlik, sabitlik, inkişaf və tərəqqi ideyalarına sadiq olan, türk xalqlarının ortaq etnik köklər, tarix, dil, mədəniyyət, ənənələr və dəyərlərinə söykənən ailə olduğunu bir daha ortaya qoydu. Sənəddə strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi, TDT-nin kollektiv strategiyasının formalaşdırılması üçün siyasi, iqtisadi, nəqliyyat, müdafiə sənayesi, humanitar, təhsil və mədəniyyət sahələrində türk dövlətlərinin tam potensialından və imkanlarından istifadə edilməsinin vacibliyi qeyd edilir. Beləliklə, bu sənəd yeni dövr üçün TDT-nin əsas inkişaf konsepsiyasına çevrilir.

## Dəstəyimizi əsirgəmirik...

Təbii ki, müasir dünyada qəbul edilən bir reallıq mövcuddur - hər bir siyasi uğurun arxasında güclü iqtisadiyyat dayanır. TDT-nin də gələcək inkişafı iqtisadi təməllərinin möhkəm olması ilə düz mütənasibdir. Prezident İlham Əliyev vurğulayıb ki, Türk Dövlətləri Təşkilatının mövcud büdcəsi qarşıya qoyduğumuz hədəflərin həyata keçirilməsi üçün yetərli deyil. Ümid edirəm ki, Azərbaycanın Türk Dövlətləri Təşkilatının Katibliyinə 2 milyon və Ağsaqqallar Şurasına 100 min ABŞ dolları məbləğində maliyyə dəstəyi təşkilatın potensialının daha da güclənməsinə töhfə verəcək.

Beləliklə, Azərbaycan növbəti dəfə özünün lider statusunu təsdiqləyir. Ölkəmizin təşəbbüsü ilə meydana çıxan çağırışların həyata keçməsi, uğur qazanması üçün davamlı dəstəyimizi əsirgəmirik. Mərkəzi Asiya - Cənubi Qafqaz - Kiçik Asiya geocoğrafi məkanını özündə birləşdirən TDT-nin yeni dövrün nizamında özünəməxsus yer tutması iqtisadi gücünün artım tempinə əsaslanacaq - bu, aksiomadır. Məhz bu gücün formalaşması, inkişaf etməsi və özünü sübuta yetirməsi üçün Azərbaycan bütün gücünü səfərbər edir.

## Kollektiv müdafiə sistemi...

Günümüzün reallığında ölkələrin fərdi müdafiə sistemləri ilə yanaşı, kollektiv müdafiə reflekslərinin artırılmasına böyük ehtiyac duyulur. TDT-nin qarşıdakı dövr ərzində strukturlaşma mexanizmində yeniliklərə əl atacağı da istisna deyil - belə olacağı təqdirdə, yeni dövr üçün TDT özünün müdafiə gücünü daha da irəliyə daşımaq iqtidarındadır. Müdafiənin gücləndirilməsi məsələsi Bişkek Zirvəsində də gündəmə gəldi. Prezident İlham Əliyev 11-ci Zirvə toplantısındakı çıxışında bildirib ki, hazırda dünyada artan təhlükələri nəzərə alaraq müdafiə, təhlükəsizlik və müdafiə sənayesi sahələrində əməkdaşlığımız böyük əhəmiyyət daşıyır. Son dövrlər hüquq-mühafizə və təhlükəsizlik orqanlarımız arasında əməkdaşlıq daha da genişlənib: "Ölkələrimizin silahlı qüvvələrinin iştirakı ilə hərbi təlimlər keçirilir. Hərbi təhsil müəssisələrimizdə qardaş ölkələrin müdavimlərinin təhsil alması qarşılıqlı etimadın və dostluğun göstəricisidir".

Qeyd edək ki, bu məsələ Qarabağ Bəyannaməsində də öz əksini tapıb - bəyannamədə üzv dövlətlərin milli qanunvericiliyinə uyğun olaraq müdafiə sənayesi sahəsində birgə fəaliyyətin davam etdirilməsi niyyətləri vurğulanır. Paralel olaraq Azərbaycan ilə Türkiyə arasında 2021-ci ildə imzalanan Şuşa Bəyannaməsi yeni dövr üçün Türk ölkələrinin hərbi əməkdaşlığı üçün əsas ola bilər - müqavilə iki dövlət arasında imzalansa da, orada əksini tapan məsələlər vacibliyinə və yeni çağırışlar nöqteyi-nəzərdən kollektiv müdafiə mexanizminin yaradılmasında da iştirak etmək qabiliyyətindədir.

## Orta Dəhliz seqmenti...

Azərbaycan post-müharibə dövründə TDT-nin inkişafı üçün mühüm bir baza formalaşdırıb: Şərq - Qərb seqmenti üzrə qısa və təhlükəsiz yolla daşımaların təmin olunması bütövlükdə təşkilat üçün mühüm iqtisadi-ticari üstünlüklər yaradıb. Prezident İlham Əliyev çıxışında bildirib ki, son dövrlər Şərq-Qərb nəqliyyat dəhlizi ilə Azərbaycan ərazisi üzrə daşımalar daha da artıb. Mərkəzi Asiya ölkələri ilə Türkiyəni Azərbaycan üzərindən bağlayan bu dəhlizin ötürmə qabiliyyətinin yüksəldilməsi üçün Azərbaycan öz sərmayələrini artırır: "2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 2024-cü ilin yanvar-sentyabr aylarında üzv və müşahidəçi dövlətlər ilə tranzit daşımalarının həcmində 15 faizə yaxın artım müşahidə edilir. Hazırda Orta Dəhlizin rəqəmsallaşdırılması və ticarətin asanlaşdırılması istiqamətində bir sıra layihələr icra olunur. Bu layihələr logistika səmərəliliyinin artırılmasına və xərclərin azaldılmasına təsir edəcək".

Bəli, Azərbaycanın Orta Dəhliz üzrə qarşılıqlı inteqrasiya prosesinə kompleks şəkildə yanaşma sərgiləməsi Cənubi Qafqazın Mərkəzi Asiya və Türkiyə ilə vahid geosiyasi məkan anlamı qazanmasına qarantiya verir. Orta Dəhlizin potensialının tam üzə çıxarılması üçün isə logistika xidmətlərinin təkmilləşdirilməsi, vahid nəqliyyat operatorlarının yaradılması, texniki və tarif şərtlərinin modernləşdirilməsi, inzibati maneələrin aradan qaldırılması və qapalı logistik dövrənin formalaşması mütləq şərtə çevrilir. Beləliklə, Orta Dəhlizin rəqəmsallaşması tranzit xəttin üstünlüklərini artırır.

## Yaşıl hədəflər uğrunda...

Azərbaycanın irəli sürdüyü yaşıl dünya təşəbbüsü hazırki qlobal iqlim problemi üçün mühüm müzakirə platformasıdır. Bu mənada, bir neçə gündən sonra Bakıda reallaşacaq COP29-un da mövcud problemlərə qarşı mübarizədə əsaslı bir mərhələ təşkil edəcəyi şübhəsizdir. Ölkəmizin sülh və təhlükəsizlik, yaşıl inkişaf xətti uğrunda ortaya qoyduğu iradə bütün ştrixləri ilə qlobal əməkdaşlığın güclənməsinə hədəflənib. Prezident İlham Əliyev çıxışında vurğulayıb ki, Azərbaycan yaxın günlərdə COP29 iqlim konfransına ev sahibliyi edəcəkdir. Keçən ilin dekabrında 200-ə yaxın ölkə Azərbaycanın namizədliyini yekdilliklə dəstəkləmişdir. Bu, beynəlxalq aləmin ölkəmizə böyük hörmətinin və dəstəyinin təzahürüdür: "Əminəm ki, Türk Dövlətləri Təşkilatına üzv ölkələr COP29 konfransının işində fəal iştirak edəcəklər".

*P.İSMAYILOV*

## Milli Məclisin iclasında...

# Deputatlar 16 məsələni müzakirə ediblər



Noyabrın 7-də Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündəliyinə 16 məsələ daxil edilib.

Əvvəlcə spiker Sahibə Qafarova 8 Noyabr - Zəfər Günü ilə bağlı fikirlərini bildirib. O qeyd edib ki, dörd il bundan əvvəl noyabrın 8-də Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimiz Vətən müharibəsində Zəfər yürüşünü qələbə ilə başa çatdırmışlar. 44 gün ərzində cəsur əsgər və zabitlərimizin Qarabağ torpağında hər addımı, azad edilmiş torpaqlarda yüksəldilən hər bayrağımız ilə Azərbaycanın qanuni hüquqları bərpa edildi. 8 noyabr Zəfəri sayəsində əzəli torpaqlarımızın 30 illik işğalına son qoyulması təkcə bizim ölkəmiz üçün deyil, həm də türk dövlətləri, bütün dünya üçün tarixi bir hadisədir.

Spiker qeyd edib ki, haqq-ədalətin və dövlətimizin ərazi bütövlüyünün bərpa edilməsi sayəsində Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu gerçəkləşib: " Son iki yüz ilə yaxın dövrdə davakar erməni millətçiliyinin həyata keçirdiyi qəsbkarlıq və etnik təmizləmələr silsiləsinə birdəfəlik son qoyulub. Azərbaycan dövlətçiliyinin tarixində yeni dövr başlanıb. Azərbaycan dövlətinə qarşı təhdidlərə son qoymaq üçün 2023-cü ilin sentyabrında həyata keçirilən bir günlük antiterror əməliyyatı hərb tariximizin yeni şanlı səhifəsini təşkil etdi. Azərbaycanın suverenliyi onun bütün ərazisində bərpa edilib. Bu möhtəşəm uğur 44 günlük Vətən müharibəsində əldə edilmiş tarixi Zəfərin məntiqi davamı və yekunu oldu.

Azərbaycan BMT-nin və digər beynəlxalq təşkilatların müvafiq sənədlərinin icrasını öz gücü ilə təmin edərək Cənubi Qafqaz bölgəsinin geosiyasi mənzərəsini dəyişdirib. Bununla əlaqədar mən Prezidentin sözlərini xatırlatmaq istərdim: "Biz bu şanlı tarixi qəlbimizdə əbədi yaşadacağıq. Azərbaycan xalqı, bütün gələcək nəsillər bu şanlı qələbə ilə haqlı olaraq fəxr edəcəklər"".

S.Qafarova deyib ki, hazırda bölgədə daimi sülh və sabitlik yaradılması məqsədi ilə Azərbaycanın irəli sürdüyü prinsiplər əsasında Ermənistanla danışıqlar davam etdirilir. Göstərilən bütün təzyiqlərə, maneələrə, xüsusən bölgədən kənar qüvvələrin cəhdlərinə baxmayaraq, sülh gündəliyi Azərbaycanın səyləri ilə addım-addım irəliyə aparılır. "Bu gün öz həyatının yeni dövrünü yaşayan Qarabağ və Şərqi Zəngəzurda bərpa və quruculuq işləri getdikcə daha geniş vüsət alır. Məcburi köçkünlərimiz doğma yurdlarına dönərək dinc həyata başlayırlar. Xüsusi qeyd edilməlidir ki, dövlət başçısı cənab İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva müntəzəm olaraq bölgəyə səfərlər edir, aparılan işləri diqqətdə saxlayırlar",-deyə MM sədri tarixi qələbələri Azərbaycana bəxş etmiş Ali Baş Komandanı, Silahlı Qüvvələrin əsgər və zabitlərini, qazilərimizi təbrik edib.

Spiker həmçinin, Zəfər Günü münasibəti ilə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktublarının göndərilməsini təklif edib.

"Biz həm Birinci, həm də İkinci Qarabağ müharibəsində, digər döyüş əməliyyatlarında Vətən və xalq yolunda canından keçmiş şəhidlərimizi, Ermənistanın soyqırımı və dövlət terrorizmi aktları nəticəsində qətlə yetirilmiş dinc soydaşlarımızı heç zaman unutmuruq, onların xatirəsini daim əziz tuturuq", -deyən S.Qafarova əlavə edib ki, Azərbaycanın tarixi qəhrəmanlıq, mərdlik və mətinlik tarixidir: "Xalqımız bütün çətinliklərə sinə gərib və həlledici döyüşdə Zəfər qazanıb. Bu gün biz döyüş meydanında qələbə ilə birlikdə, bütün xalqımızı birləşdirən, onu "dəmir yumruğa" çevirən yenilməzlik ruhunu da qeyd edirik. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan öz müstəqilliyini, ərazi bütövlüyünü və suverenliyini qorumaq, siyasi və iqtisadi qüdrətini artırmaq, mədəniyyətini inkişaf etdirmək, xalqın rifahını yüksəltmək əzmi ilə gələcəyə doğru inamla addımlayır".

Daha sonra millət vəkilləri cari məsələlərlə bağlı çıxış edib, 8 Noyab-Zəfər Gününün tarixi əhəmiyyətini vurğulayıblar.

Sonra gündəlikdəki məsələlər müzakirə olunub. Əvvəlcə Mərkəzi Bankın İdarə Heyətinə yeni üzvlərinin təyin edilməsi məsələsinə baxılıb. Layihəyə əsasən, Toğrul Nəcəfəli oğlu Əliyev, Gülər Azər qızı Paşayeva, Əli İsmayıl oğlu Əhmədov və Vüsal Cahangir oğlu Xəlilov Mərkəzi Bankın İdarə Heyətinə üzv təyin olunublar. Bundan başqa, Rəşad Temraz oğlu Orucovun AMB İdarə Heyətinin üzvü vəzifəsindən azad edilməsi haqqında qərar qəbul olunub.

Sonra millət vəkilləri gündəlikdə olan digər məsələləri müzakirə ediblər.

*Nardar BAYRAMLI*

# Azərbaycan Zəfər marşındadır!

Təqvimdəki 12 ayın hər birinin özünəməxsus gözəlliyi var. Ancaq xalqımız və dövlətimiz üçün noyabr ayının xüsusi yeri var ki, bu da təsadüfi deyil. Bizim Zəfər marşımız məhz bu ayda məntiqi sonluğuna çatıb - 2020-ci il noyabrın 10-da 44 günlük müharibənin başa çatmasını və Azərbaycanın ərazi bütövlüyünün hərbi-siyasi yolla təmin olunmasını özündə ehtiva edən üçtərəfli bəyanat imzalanıb.

Vətən müharibəsinin böyük Zəfərlə başa çatması tariximizin şanlı, qürurverici bir səhifəsidir. Xalqımız, dövlətimiz var olduqca bu Qələbə də daim bizimlə olacaq və bizə həmişə sonsuz qürur hissi yaşadacaq. Prezident İlham Əliyev 3 dekabr 2020-ci il tarixində Zəfər Gününün təsis edilməsi haqqında sərəncam imzalayıb. Sənədə əsasən, hər il noyabrın 8-i ölkəmizdə Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilir.



## Zəfərə aparan yol

Ötən əsrin əvvəllərində Ermənistanın havadarlarının dəstəyi ilə başladığı işğalçılıq siyasətinin nəticəsi olaraq Azərbaycan ərazilərinin 20 faizini itirmiş, bir milyondan artıq soydaşımız doğma yurd-yuvalarını tərk etmək məcburiyyətində qalmışdı. Mənfur düşmən hələ bununla da kifayətlənmirdi. Bəhs olunan sərəncamda da qeyd edildiyi kimi, 2019-cu ildən etibarən isə Ermənistan hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatlar və atdığı addımlar danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozmuşdur.

Ermənistanın qəbul etdiyi təcavüzkar və hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, "yeni ərazilər uğrunda yeni müharibə" çağırışı, mülki şəxslərdən ibarət "könüllü dəstələri" yaratmaq qərarı, 2020-ci il iyulun 12-də Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, eyni zamanda, bütövlükdə qoşunların təmas xəttində gərginliyi artırması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunların cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını göstərirdi.

Belə bir kədərli reallıq fonunda ölkəmizin Zəfərə gedən yolu heç də asan olmayıb. Azərbaycan xalqı və dövləti İkinci Qarabağ müharibəsindən əvvəlki mərhələdə heç vaxt ölkənin ərazi bütövlüyünün və suverenliyinin pozulması faktı ilə barışmadı. Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi sayəsində işğal faktına son qoyulması, ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin edilməsi ölkə gündəminin mərkəzində saxlanıldı. Bu strateji xəttə uyğun olaraq Azərbaycan danışıqlar prosesində fəallıq göstərməklə yanaşı, həm də iqtisadiyyatını gücləndirməklə milli gücünü artırdı, müasir ordu quruculuğunu davamlı olaraq diqqət mərkəzində saxladı. Prezident İlham Əliyevin hər bir qərarı, təşəbbüsü və addımı Azərbaycanı Qarabağın azadlığına yaxınlaşdırırdı. Bütün istiqamətlərdə qazanılan uğurların, əldə edilən nailiyyətlərin bir hədəfi var idi - işğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi və Azərbaycanın bütün sərhədləri boyunca bayrağımızın dalğalanması. Dövlətimizin başçısı yüksək tribunalardan qətiyyətlə bildirirdi ki, Azərbaycan istənilən yolla ərazi bütövlüyünü təmin etməyə nail olacaq. Oldu da!

## Ərazi bütövlüyümüz və suverenliyimiz hərbi-siyasi yolla təmin edildi

Ermənistanın təxribatlarına və növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün 2020-ci il sentyabrın 27-də Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu. Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman hərbçilərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi.

Vətən müharibəsində əldə olunan Qələbənin miqyası çox böyükdür. Ordumuz cəmi 44 gün ərzində düşməni kapitulyasiyaya məruz qoydu. Xatırladaq ki, uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksək, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəkləri və daha 5 adsız yüksəklik işğaldan azad olunub. Bunun ardınca üçtərəfli bəyanatın şərtlərinə uyğun oaraq noyabrın 10-dan sonrakı 20 gün ərzində 3 rayon - noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın bir güllə də atılmadan Azərbaycana təhvil verilib. 2022-ci avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürülüb. Bununla da ölkəmizin ərazi bütövlüyü hərbi-siyasi yolla təmin edildi.

44 günlük müharibədən sonra Azərbaycanın qarşısında duran ən mühüm vəzifə Qarabağda separatizm yuvasını dağıtmaq və ölkənin bütün ərazisində suverenliyimizin tam təmin edilməsinə nail olmaq idi. Bu ümummilli ideyanı isə Müzəffər Azərbaycan Ordusu 2023-cü il sentyabrın 19-20-də həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində reallaşdırmağa nail oldu. Ordumuz bu əməlliyyatları yüksək peşəkarlıqla həyata keçirdi. Qarabağda separatizm yuvasını dağıtmaq üçün cəmi 23 saat kifayət etdi. 2023-cü il oktyabrın 15-də Xankəndidə Azərbaycan Bayrağının ucaldılması öz tarixi əhəmiyyətinə görə 44 günlük müharibədə qazanılan Zəfərə bərabər növbəti parlaq Qələbə idi. Qarabağda suverenliyi bərpa edən Azərbaycan bununla mahiyyət etibarı ilə 10 Noyabr Zəfərini tamamlamış oldu.

## 44 günlük müharibədə Şuşa zirvəsi

44 günlük müharibədə igid hərbçilərimiz hər gün şücaətlər göstəriblər. Düşmən tərəfinin özünün də təsdiqlədiyi kimi, müharibədə Ermənistan ordusunda 11 min fərari qeydə alınıb. Bununla da "döyüşkən erməni xalqı" mifi tar-mar olub. Azərbaycan ordusunda isə bir nəfər də olsun fərarilik etməyib, hər kəs irəli getməyə, yeni döyüşlərə qatılmağa çalışıb.

Şuşa uğrunda gedən döyüşlərdə isə igid hərbçilərimiz xüsusi bir qəhrəmanlıq dastanı yazıblar. Şuşa başları mavi səmaya dayanan uca dağların zirvəsində qərar tutan gözəl bir şəhərdir. Elə Şuşanın noyabrın 8-də işğaldan azad olunması da İkinci Qarabağ müharibəsinin zirvə nöqtəsidir. Şuşanın ab-havası ilə xalqımızın iç dünyası arasında möhkəm bir bağlılıq var. Uzun illik işğala, dağıntılara, şəhərin erməniləşdirilməsi cəhdlərinə baxmayaraq, Şuşa özünün tarixi azərbaycanlı ovqatını, ruhunu qoruyub. Bunu şəhərin küçələrində gəzərkən açıq-aydın hiss edirsən və yaşadığın hisslər səni tarixi keçmişə aparır. Bax elə buna görə də Azərbaycan xalqı həyatını, gələcəyini Şuşasız təsəvvür etmir. Prezident İlham Əliyev müharibə günlərində xalqımızın qəlb arzularını ifadə edərək bildirirdi ki, Şuşasız bizim işimiz, missiyamız yarımçıq qalar. Şuşanın azad edilməsi missiyasını qəhrəman Azərbaycan əsgər və zabitləri tamamladılar. Bunu etmək asan deyildi. Ancaq Şuşaya, doğma torpağa olan sevgi hərbçilərimizə güc, qüvvət verdi və onlar sıldırım qayaları aşaraq Şuşanı azad etməyə nail oldular. Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixində imzaladığı müvafiq sərəncama əsasən ölkəmizdə hər il noyabrın 8-i Şuşa şəhəri günü kimi təntənəli şəkildə qeyd olunur.

***Mübariz ABDULLAYEV***

# Zəfər ayının müəllifləri

Azərbaycan müstəqillik illərinddə xalqımızın tarixini daha da zənginləşdirən bir sıra mühüm nailiyyətlərə imza atıb. Təbii ki, bu günümüz və gələcəyimiz üçün müstəsna önəm daşıyan həmin uğurların əldə olunduğu günlər də əbədiləşdirilib. Hazırda içində olduğumuz noyabr Azərbaycan üçün bayramlar, əlamətdar tarixlər ayı kimi səciyyələndirilə bilər. Bu aya təsadüf edən bayramlarımızın adları bir-birindən fərqlənsə də, onların hamısı müstəqil dövlət quruculuğu ilə bağlıdır. Digər ümumiləşdirici amil isə ondan ibarətdir ki, noyabr ayına təsadüf edən bayramların xalqımızın və respublikamızın həyatına daxil olması bilavasitə Ulu Öndər Heydər Əliyevin və onun siyasi varisi Prezident İlham Əliyevin fəaliyyətləri sayəsində mümkün olub. Beləliklə, yaşadığımız noyabr ayına aşağıdakı əlamətdar tarixlər təsadüf edir:

8 noyabr - Zəfər Günü
9 noyabr - Dövlət Bayrağı Günü
10 noyabr - Üçtərəfli Bəyanatın imzalandığı gün
12 noyabr - Konstitusiya Günü
17 noyabr - Milli Dirçəliş Günü
21 noyabr - Yeni Azərbaycan Partiyasının yaranma günü

## Hər bir azərbaycanlının sonsuz qürur mənbəyi olan böyük Qələbə

Prezident İlham Əliyevin 3 dekabr 2020-ci il tarixli sərəncamı ilə respublikamızda hər il noyabrın 8-i Zəfər Günü kimi qeyd olunur. Bu tarixin Zəfər bayramı kimi qeyd olunması Müzəffər Ordumuzun 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən 44 günlük Vətən müharibəsində böyük Qələbəyə imza atması ilə bağlıdır. Zəfər günü son 200 illik tariximizin ən şanlı səhifəsidir. Xalqımıza sonsuz sevinc və qürur yaşadan Qələbənin memarı isə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevdir.

Prezident İlham Əliyev Azərbaycana rəhbərliyinin ilk dönəmlərindən başlayaraq ölkəni ərazi bütövlüyümüzün təmin olunması uğrunda haqq mübarizəsinə hazırladı. 44 günlük müharibədə qazanılan Qələbə tariximizdə əbədi qalacaq. Zəfər bayramının noyabrın 8-də qeyd edilməsi də təsadüfi deyildir. Qəhrəman hərbçilərimiz xalqımızın qəlbində xüsusi yeri olan əziz Şuşa şəhərini məhz 8 noyabr 2020-ci il tarixində düşmən tapdağından azad etməyə nail olmuşlar. Məhz Şuşanın işğaldan azad olunmasından sonra düşmən məğlubiyyətini dərk edərək iki gün sonra kapitulyasiya aktını imzalamaq məcburiyyətində qaldı.

## Ölkənin bütün ərazisində əzəmətlə dalğalanan üçrəngli bayrağımız



Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra üçrəngli bayrağımızın yenidən Azərbaycanın dövlət rəmzlərindən biri kimi qəbul edilməsi bilavasitə böyük siyasətçi Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımız üçrəngli bayrağımızın yenidən dövlət rəmzi kimi təsdiqlənməsinin sevincini Naxçıvan Ali Sovetinin Heydər Əliyevin Sədrliyi ilə keçirilən 1990-cı il 17 noyabr tarixli sessiyasında çıxarılan tarixi qərarlarla yaşadı. Sessiyada Heydər Əliyevin təşəbbüsü əsasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Ali Məclisində qaldırıldı və dövlət rəmzi kimi qəbul olundu. Bu, xalqına bağlı olan böyük siyasətçinin milli təəssübkeşliyinin, vətənpərvərliyinin və cəsarətinin ifadəsi idi. Bu tarixi hadisə imperiyanın hələ ayaqüstə olduğu, qılıncının dalının da, qabağının da iti kəsdiyi bir dövrdə baş vermişdi. Sonradan - 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxaraq üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar verdi.

Ötən dövrdə respublikamızda üçrəngli bayrağımıza həm dövlət, həm də cəmiyyət səviyyəsində münasibət daha da möhkəmlənib. Prezident İlham Əliyev 2009-cu il noyabrın 17-də "Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" sərəncam imzalayıb. Bəhs olunan sənədə əsasən ölkəmizdə hər il 9 noyabr Dövlət Bayrağı Günü kimi qeyd edilir.

## Qalib Azərbaycanın şərtləri əsasında imzalanan üçtərəfli bəyanat

Üç onillik ərzində Azərbaycanın dünya birliyi tərəfindən tanınan ərazilərinin 20 faizini işğal altında saxlayan və yeni ərazilər tutmaq iddialarından çıxış edən işğalçı Ermənistanı cəzalandırmaq lazım idi və bunu Azərbaycan 44 günlük Vətən müharibəsində etdi.

Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi. Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə də noyabrın 8-də Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı və Ermənistanın öz məğlubiyyətini etiraf etməsi ilə nəticələndi. Bundan sonra noyabrın 10-da qalib Azərbaycanın şərtləri əsasında hazırlanan və məğlub Ermənistan üçün kapitulyasiya aktı sayılan üçtərəfli bəyanat imzalandı. Həmin sənədə əsasən Ermənistan Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana döyüşsüz qaytarmağa məcbur oldu.





## Vətəndaşlara geniş təminatlar verən Konstitusiya

12 noyabr 1995-ci il tarixində müstəqil Azərbaycanın ilk Konstitusiyası (Əsas Qanunu) ümumxalq səsverməsi-referendum yolu ilə qəbul edilib. Bu Əsas Qanun hazırlanarkən dünyanın qabaqcıl ölkələrinin təcrübəsi nəzərə alınıb. Əsas Qanunun qəbul edilməsi ilə ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğu istiqamətində yeni mərhələnin təməli qoyuldu.

Müstəqil Azərbaycanın ilk Konstitusiyasının müəllifi böyük siyasətçi Heydər Əliyevdir. 1995-ci ilin may ayında yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın tərkibi Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiqləndi. Komissiya Heydər Əliyevin Sədrliyi ilə fəaliyyət göstərirdi. O, Konstitusiyanın ən təkmil formada hazırlanmasını qarşıya məqsəd qoymuşdu.

Müstəqil Azərbaycanın ilk Konstitusiyasının hazırlanması və qəbul edilməsi Heydər Əliyevin dövlətçilik tariximizdə ən böyük xidmətlərindən biridir. Sənədi dəyərləndirən Heydər Əliyev deyirdi: "Yeni Konstitusiya Azərbaycanda demokratik, hüquqi dövlətin qurulması, demokratik vətəndaş cəmiyyətinin yaranması üçün bütün əsaslar yaradıbdır, bütün təminatları veribdir".

Ölkəmizin Əsas Qanununun müəllifi olan Heydər Əliyev, həm də Konstitusiyanın qəbul olunduğu 12 noyabrın ölkədə bayram kimi qeyd olunması təşəbbüsü ilə çıxış edib. Onun 1996-cı il 1 noyabr tarixində imzaladığı fərmana əsasən hər il noyabrın 12-si müstəqil Azərbaycanda Konstitusiya Günü kimi qeyd edilir.

## Xalqın milli ideyalar uğrunda bir yumruq kimi birləşdiyi gün

Ötən əsrin səksəninci illərinin sonlarından başlayaraq keçmiş ittifaq məkanında bir sıra proseslər başladı. Artıq çürümüş imperiyanın əsl mahiyyəti aydınlaşır, uzun illər təlqin olunan kommunist beynəlmiləlçiliyinin puç olduğu üzə çıxırdı. 1988-ci ilin əvvəlindən etibarən Ermənistanın Azərbaycana qarşı açıq təcavüzü başladı. Moskvanın, xüsusən də SSRİ-nin rəhbəri M.Qorbaçovun buna biganə münasibətini görən ermənilər planlı şəkildə, Ermənistan hökumətinin tapşırığı və göstərişilə Ermənistanda yaşayan 200 mindən çox azərbaycanlını öz ata-baba yurdlarından kütləvi surətdə qovdular. Ermənilər, həmçinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsində iğtişaşlar törətdilər. Onlar tarixi torpağımız olan Dağlıq Qarabağın Azərbaycandan qoparılıb Ermənistana birləşdirilməsini tələb edirdilər. Belə bir vaxtda Azərbaycan xalqı ayağa qalxdı. 1988-ci il noyabrın 17-də Bakının əsas meydanı sayılan indiki Azadlıq meydanında keçmiş sovet hakimiyyətinin xalqımıza qarşı apardığı siyasətə etiraz əlaməti olaraq Azərbaycan ictimaiyyətinin izdihamlı mitinqi başlandı. Bütün xalq bir yumruq kimi birləşmişdi. Bu, əsl xalq, milli azadlıq hərəkatı idi. Dekabrın əvvəllərində keçmiş sovet qoşunları ümumxalq mitinqini dağıtmağa nail olsalar da, sonradan xalqımızın müstəqillik uğrunda mübarizəsi dönməz bir məcraya yönəldi.



## Qələbələr partiyası

Cənubi Qafqazın ən böyük siyasi qüvvəsi sayılan Yeni Azərbaycan Partiyası "91-lər"in müraciəti əsasında 1992-ci il noyabrın 21-də Naxçıvanda Heydər Əliyevin sədrliyi və 550 nəfərdən ibarət təşəbbüs qrupunun iştirakı ilə keçirilən təsis konfransında yaradılıb.

Müxalifət partiyası kimi yaranan YAP 1993-cü ildə partiyanın Sədri Heydər Əliyevin prezident seçilməsi, 1995-ci ildə keçirilən parlament seçkilərində qalib gəlməklə Azərbaycanda iqtidar partiyasına çevrildi. Yeni Azərbaycan Partiyasının Sədri 1992-2003-cü illərdə Heydər Əliyev olub. 2005-ci ildən isə YAP-ın Sədri İlham Əliyevdir.

Yeni Azərbaycan Partiyasının namizədləri 1993, 1998, 2003, 2008, 2013, 2018 və 2024-cü illərdə baş tutan Prezident seçkilərində qalib gəlib. 1993 və 1998-ci illərdə Heydər Əliyev, 2003, 2008, 2013, 2018, 2024-cü illərdə isə İlham Əliyev Azərbaycan Prezidenti seçilib.

1995, 2000, 2005, 2010, 2015, 2020 və 2024-cü illərdə keçirilən parlament seçkilərində də Yeni Azərbaycan Partiyası qalib gəlib. 125 üzvdən ibarət olan Milli Məclisdə YAP 1995-ci ildə 53, 2000-ci ildə 77, 2005-ci ildə 63, 2010-cu ildə 71, 2015-ci ildə 74, 2020-ci ildə 70, 2024-cü ildə isə 68 deputatla təmsil olunub.

Qatıldığı bütün seçkilərin qalibi olan və sıralarında 800 minə yaxın üzvü birləşdirən YAP dünənin, bu günün, gələcəyin partiyasıdır.

***Mübariz FEYİZLİ***

# YAP-ın təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib

























Noyabrın 7-də Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə tədbirdə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbir iştirakçılarını müasir dövlətçilik tariximizin ən qürurverici hadisəsi - zirvə nöqtəsi olan və Azərbaycanın ərazi bütövlüyünün bərpasını təmin edən şanlı Zəfərin dördüncü ildönümü münasibətilə salamlamaqdan böyük məmnunluq duyduğunu bildirib. Tahir Budaqov vurğulayıb ki, Azərbaycan xalqı torpaqlarımızın işğaldan azad olunmasının, əzəli yurd yerlərinə əbədi qayıdışının hədsiz sevinc və qürurunu yaşamaqla 8 Noyabr - Zəfər Gününü böyük coşqu ilə qeyd edir: "Əlbəttə, bu tarixi Qələbə heç də asanlıqla qazanılmamış, möhtəşəm Zəfərə gedən yol olduqca çətin və keşməkeşli olmuşdur. "Biz öz torpaqlarımızın sahibi olmalıyıq. Sülh yolu ilə məsələləri həll etməliyik. Nəyin bahasına olur-olsun, hansı yolla olur-olsun, Şuşa da, Qarabağ da, bütün işğal olunmuş torpaqlar azad olunacaq - Azərbaycan xalqının iradəsi, Azərbaycanın qəhrəman oğullarının şücaəti ilə azad olunacaq və Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq!", - deyən Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə bu hədəfə çatmaq üçün məqsədyönlü addımlar atılmış, həm ölkə daxilində, həm də beynəlxalq miqyasda məqsədyönlü işlər görülərək Azərbaycanı böyük Zəfərə aparan yolun əsası qoyulmuşdur. Bu gün iftixarla qeyd edirik ki, torpaqlarımız döyüş meydanında Ümummilli Lider Heydər Əliyevin siyasi varisi - Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli ordumuzun işğalçıları darmadağın edərək layiqincə cəzalandırması nəticəsində azad olunmuşdur. Eyni zamanda onu da xüsusi vurğulamaq lazımdır ki, Azərbaycanın öz ərazi bütövlüyü və suverenliyini bərpa etməsi müstəqillik illərində milli maraqlara əsaslanan qətiyyətli siyasətin məntiqi nəticəsidir".

YAP Sədrinin müavini qeyd edib ki, Azərbaycan xalqı heç vaxt torpaqlarımızın işğal faktı ilə barışmamış, 30 ilə yaxın müddət ərzində inamını itirmədən haqq-ədalət mübarizəsini davam etdirərək tarixi Qələbəyə köklənmişdir: "Çünki xalqa arxalanaraq Azərbaycan dövlətini Zəfərə aparan liderlər - Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev tarixin mühüm anlarında və taleyüklü məqamlarında ölkəni çətin sınaqlardan çıxarmaqla, parlaq nailiyyətlərə imza atmaqla bu sonsuz güvəni - sarsılmaz Qələbə inamını yaratmışlar. Vətənin bütövlüyünü, tarixi ədaləti və milli ləyaqəti bərpa etmək uğrunda haqq mübarizəsini şərəflə aparan Azərbaycan xalqı iradəsini ortaya qoymuş, gücünü göstərmiş və məqsədinə nail olmuşdur".

Onun sözlərinə görə, xalqın inam və dəstəyindən güc alan Prezident İlham Əliyevin sosial-iqtisadi tərəqqiyə, ölkəmizin hərbi gücünün və müdafiə qabiliyyətinin yüksəlməsinə, beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə yönəlmiş məqsədyönlü və uzaqgörən siyasəti Azərbaycanın haqq işinin Zəfərlə yekunlaşmasını təmin etmişdir: "O, uzun müddət işğal altında olan torpaqlarımızın azad edilməsinə nail olmaqla ata vəsiyyətini, Vətənə sədaqət andını və xalqa vədini şərəflə yerinə yetirmişdir. Cənab İlham Əliyev Ulu Öndərin ən böyük arzusunu gerçəkləşdirməklə Azərbaycanı Heydər Əliyevin görmək istədiyi kimi qalib, qüdrətli və əzəmətli dövlətə çevirmişdir".

YAP Mərkəzi Aparatının rəhbəri söyləyib ki, ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpası, heç şübhəsiz, ən böyük Qələbəmiz kimi tarixə əbədi həkk olunmuşdur: "Dövlət başçısının rəhbərliyi ilə Azərbaycanın bütün cəbhələrdə - hərb meydanında, informasiya platformasında və diplomatiya müstəvisində üstünlüyünü təmin edərək böyük nailiyyətlərə müvəffəq olması nəticəsində hazırda dövlətçilik tariximizin ən möhtəşəm dövrünü yaşayırıq. 44 günlük Vətən müharibəsində və birgünlük antiterror tədbirlərində qazandığımız şanlı zəfərlər böyük tarixi və mənəvi-siyasi əhəmiyyətə malikdir. Əvvəla, Azərbaycan öz milli gücü ilə işğal faktına və separatizmə son qoymuş, çoxsaylı təzyiqlərə məruz qalmasına rəğmən, BMT-nin uzun müddət kağız üzərində qalmış qətnamələrinin icrasını təmin etməklə dünya miqyasında yeni nümunə - mühüm siyasi presedent yaratmışdır. Digər tərəfdən, Azərbaycan tarixi Zəfər qazanmaqla beynəlxalq hüquqa məhəl qoymayan, "münaqişənin hərbi yolla həlli yoxdur" deyərək işğalçılıq siyasətinin nəticələrinin aradan qaldırılmasında maraqlı olmadığını nümayiş etdirən, bir çox hallarda isə təcavüzkar dövlətə dəstək göstərən qüvvələrin ikili standartlara əsaslanan qərəzli siyasətini iflasa uğratmışdır. Azərbaycanın Qələbəsi regionda ədalətli geosiyasi nizamın təşəkkülü, yeni təhlükəsizlik və əməkdaşlıq mühitinin formalaşması, sülh və etimad quruculuğunun həyata keçirilməsi baxımından böyük önəmə malikdir. Hər zaman sülh, sabitlik, rifah və firavanlıq tərəfdarı kimi çıxış edən, regionun çoxtərəfli işbirliyi məkanına çevrilməsində maraqlı olan Azərbaycan bu gün də öz mövqeyinə və prinsiplərinə sadiqliyini əyani şəkildə nümayiş etdirir. Azərbaycanın siyasəti konstruktiv xarakter daşıyır, regionun konfrontasiya deyil, dialoq, əməkdaşlıq və inteqrasiya məkanına çevrilməsinə hədəflənmişdir. Yeni reallıqlar fonunda bölgədə dayanıqlı sülhə nail olunması, kommunikasiyaların bərpası, qarşılıqlı faydalı əməkdaşlıq platformalarının reallaşdırılması Azərbaycan başda olmaqla çoxşaxəli işbirliyində maraqlı olan dövlətlər üçün önəmli imkanlar - mühüm siyasi-iqtisadi üstünlüklər vəd edir. Bir sözlə, Cənubi Qafqaz regionunun lider ölkəsi kimi müasir beynəlxalq münasibətlər sistemində prinsiplərinə sadiq etibarlı və konstruktiv tərəfdaş kimi tanınan Azərbaycan dövləti yeni reallıqlar yaradaraq geostrateji mövqelərini olduqca möhkəmləndirmişdir".

Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpasından sonra yeni mərhələdə olduqca vacib siyasi, sosial-iqtisadi və mədəni-humanitar çağırışların meydana çıxdığını deyən YAP Sədrinin müavini diqqətə çatdırıb ki, bunlardan biri də Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri olan işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışın təmin edilməsidir. "Bu məqsədlə müvafiq Dövlət Proqramı qəbul edilmiş və hazırda müvəffəqiyyətlə icra olunmaqdadır. Böyük Qayıdış Proqramı çərçivəsində ərazilərin minalardan təmizlənməsi, ekoloji vəziyyətin yaxşılaşdırılması, iqtisadi fəaliyyətin bərpası və digər istiqamətlərdə atılan addımlar dayanıqlı məskunlaşmanın, o cümlədən müasir standartlara uyğun yüksək keyfiyyətli həyat şəraitinin təmin olunmasına əlverişli zəmin yaratmaqla bərabər, sosialyönümlü iqtisadiyyatın inkişafı baxımından da əhəmiyyətlidir. Qarabağ və Şərqi Zəngəzurun potensialından istifadə olunması nəinki həmin bölgələrin yüksəlişi, bütövlükdə Azərbaycan iqtisadiyyatının inkişafı üçün mühüm perspektivlər yaradır. Nəhayət, dövrümüzün aktual çağırışlarından biri kimi işğaldan azad olunmuş ərazilərdə "yaşıl enerji" konsepsiyası əsasında ekoloji təmiz texnologiyaların tətbiqi "yaşıl iqtisadiyyata" keçid, o cümlədən iqlim dəyişmələrinin fəsadlarına qarşı fəal mübarizə çərçivəsində "yaşıl dünya" naminə təşəbbüslərin reallaşdırılması və beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi üçün son dərəcə əhəmiyyətlidir. Böyük Qayıdış 30 il ərzində Ermənistanın işğalçı siyasətindən əziyyət çəkən Azərbaycan xalqının ən böyük arzularından idi. Bu gün iftixarla qeyd edirik ki, Heydər Əliyev yolunun Müzəffər davamçısı İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər nəticəsində soydaşlarımızın arzuları gerçəkləşməyə çevrilir - Böyük Qayıdış prosesi uğurla reallaşdırılır. Bu proses tarixi ədalətin bərpasının təzahürü olmaqla bərabər, müasir beynəlxalq münasibətlər sisteminin layiqli və məsuliyyətli üzvü olan Azərbaycanın dünyada iminin möhkəmlənməsinə xidmət edir və xalqımızın təntənəli Zəfər yürüşünün davam etdiyini göstərir. Dövlət başçısının qeyd etdiyi kimi: "Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq, bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz", - deyə Tahir Budaqov əlavə edib.

YAP Sədrinin müavini diqqətə çatdırıb ki, Azərbaycan dövləti və cəmiyyəti hər zaman mübariz Vətən övladlarının şücaətini yüksək qiymətləndirir, şəhidlərimizin ruhuna ehtiram göstərir, onların əziz xatirəsini uca tutur: "Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü və suverenliyi yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə ehtiramımız sonsuzdur".

"Şübhə yoxdur ki, şəhidlərimizin ruhunun şad olduğu indiki məqamda dövlətimizin qüdrəti, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasəti, xalqımızın sarsılmaz birliyi Azərbaycanı yeni möhtəşəm nailiyyətlərə aparacaq, həm müstəqilliyimizin, həm də tarixi Zəfərimizin mənəvi-siyasi rəmzi olan, şəhidlərin ölməzliyini, Vətənin bölünməzliyini əks etdirən, işğaldan azad edilmiş ərazilərimizdə qürurla ucaldılan üçrəngli bayrağımız daim zirvələrdə dalğalanacaqdır.

Hər birinizi xalqımızın iftixar mənbəyi və dövlətimizin sarsılmaz qüdrətinin ifadəsi olan 8 Noyabr - Zəfər Günü, həmçinin qarşıdan gələn 9 Noyabr - Dövlət Bayrağı Günü və 12 Noyabr - Konstitusiya Günü münasibətilə təbrik edir, möhkəm cansağlığı və dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə qalib Azərbaycanın daha parlaq gələcəyi naminə şərəfli fəaliyyətinizdə uğurlar arzulayıram",- deyə Tahir Budaqov vurğulayıb.

Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini, Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov bildirib ki, Vətən müharibəsində qazanılan Qələbə tariximizə qızıl hərflərlə yazılıb. Onun sözlərinə görə, Azərbaycanın müasir tarixinin ən mühüm iki hadisəsi dövlət müstəqilliyimizin bərpa olunması və 30 il Ermənistanın işğalı altında olan torpaqlarımızın azad edilməsidir: "Dörd il əvvəl əzəmətli, qüdrətli ordumuzun qazandığı tarixi Zəfərlə ölkəmizin ərazi bütövlüyü bərpa olundu. Bu tarixi Zəfərin əhəmiyyəti həm də ondan ibarətdir ki, Azərbaycan torpaqlarını işğaldan azad etməklə Cənubi Qafqaz regionunda yeni reallıqlar yaratdı, beynəlxalq müstəvidə özünün mövqelərini əhəmiyyətli dərəcədə gücləndirdi".

Əli Əhmədov söyləyib ki, 44 günlük müharibədə əldə edilən möhtəşəm Qələbə bölgədə yeni mənzərə yaradır: "Bu, bir tərəfdən təhlükəsizlik amilidir, digər tərəfdən isə yeni iqtisadi əməkdaşlıq imkanları yaradır. Bu Qələbə təkcə Azərbaycan üçün deyil, bölgədə yaşayan bütün xalqlar üçün bir nemətdir. Çünki regionda sülh və təhlükəsizlik tam təmin edildikdən sonra bir çox yeniliklərin şahidi olacağıq. Artıq Azərbaycanla Ermənistan arasında sülh gündəliyi formalaşıb, sülh sazişi ilə bağlı danışıqlar davam edir. Bu amil həm də bölgə xalqları arasında yaxın əlaqələrin qurulmasında yeni səhifə açacaq. Sülh və təhlükəsizlik bü-

# YAP-ın təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib

əvvəli 4-cü səhifədə

tövlükdə regionumuz üçün rifah, əmin-amanlıq vəd edir”.

Əli Əhmədov deyib ki, Azərbaycan həm də dünyaya sülh nümunəsi təqdim etdi: “Çünki bu Zəfərlə uzun müddət davam edən münaqişəyə son qoyuldu. Eyni zamanda, Azərbaycan bu Zəfərlə haqsızlıq və ədalətsizliklə mübarizə aparmaq, bu mübarizədə qalib gəlmək nümunəsini təqdim etdi. Ona görə də Azərbaycanın bu haqq mübarizəsi dünyada hələ də davam edən münaqişələrdə sülhə nail olmaq üçün bir nümunə ola bilər”.

YAP Sədrinin müavini qeyd edib ki, möhtəşəm Qələbəni təmin edən əsas amillərdən biri ölkə iqtisadiyyatının güclü olmasıdır. Onun fikrincə, bu Qələbənin tarixdə mühüm yeri təkcə 30 il sonra torpaqların işğaldan azad edilməsi deyil, həm də milli qürurumuzun qaytarılması, milli ruhun yüksək olmasıdır: “İndi hər bir vətəndaşımız azərbaycanlı olmağın qürurunu yaşayır. Bu tarixi Qələbəni müəyyənləşdirən bir cəhət də onun döyüş meydanında əldə olunmasıdır. Biz müharibə dövründə gənclərimizin milli ruhunun nə dərəcədə yüksək olduğunu gördük. Bu amil milli ruhumuzun təntənəsi hesab oluna bilər. Heç şübhəsiz, Azərbaycan bu Qələbəni əldə etməklə öz tarixinin şərəf və ləyaqət səhifəsini yazıb”.

Əli Əhmədov bildirib ki, Qələbəni mümkün edən digər amillərdən biri Azərbaycan xalqının dəyanətidir: “30 il ərzində xalqımız işğal faktı ilə razılaşmadı, güc topladı və öz torpaqlarını azad etdi. Hər bir dövlətin əsas missiyalarından biri öz xalqının təhlükəsizliyini təmin etməkdir. Azərbaycan dövləti də məhz bunu etdi. Digər tərəfdən, Qələbənin təmin olunmasında mühüm rol oynayan amillərdən biri əzəmətli Azərbaycan Ordusu, qəhrəman hərbçilərimizdir. Güclü ordumuz olmasaydı, öz torpaqlarımızı azad edə bilməzdik. Dövlətimizin qüdrəti, ordumuzun döyüş qabiliyyəti sayəsində torpaqlarımız azad olundu. Qələbəmizin həlledici amili isə Prezident, Ali Baş Komandan İlham Əliyevin adı ilə bağlıdır. Dövlət, xalq və ordu o zaman güclü olur ki, ona güclü lider rəhbərlik edir. Bu mənada, bu gün Azərbaycan xalqının böyük coşqu ilə qeyd etdiyi Qələbəmizin baş qəhrəmanı Prezident, Ali Baş Komandan İlham Əliyevdir. Biz hərb və diplomatiya cəbhəsində cənab İlham Əliyevin liderliyini, sərkərdəlik nümunəsini gördük. Xalq-iqtidar birliyi, dövlətimizin başçısına inam möhtəşəm Qələbə ilə nəticələndi. Məhz bunun nəticəsidir ki, 30 il işğal altında qalan torpaqlarımızı 44 gündə azad etdik”.









YAP Sədrinin müavini diqqətə çatdırıb ki, bu Qələbə bütün bölgədə sülh və firavanlığın təmin olunması üçün etibarlı zəmin yaradır: “Qürurvericidir ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı öz tarixinin ən şərəfli anlarını yaşayır. Tarix öz şərəf səhifəsinə cənab İlham Əliyevin adını əbədi həkk edib. Müstəqil Azərbaycanın qurucusu Heydər Əliyev vaxtilə bildirmişdi ki, mənim başa çatdıra bilmədiyim işləri İlham Əliyev sona çatdıracaq. Müdrikcəsinə deyilmiş bu fikir reallığa çevrildi. Bu şanlı Qələbədən sonra Azərbaycan tarixinin yeni mərhələsi başlayıb, xalqımız dünyada öz dəyanəti, əyilməzliyi və ordusunun gücü ilə tanınır”.

Əli Əhmədov işğaldan azad edilmiş ərazilərdə möhtəşəm quruculuq işlərindən də bəhs edərək keçmiş məcburi köçkünlərin Böyük Qayıdış proqramı çərçivəsində doğma yurdlarına qayıtmağa başladıqlarını vurğulayıb. Onun sözlərinə görə, işğaldan azad edilmiş ərazilərin bərpası və Böyük Qayıdışın təmin olunması yeni mərhələdə Azərbaycanın əsas prioritetləri sırasında yer alır: “Söhbət bütünlüklə dağıdılmış ərazilərin minalardan təmizlənməsindən, şəhər və kəndlərin bərpasından, zəruri infrastruktur qurulmasından gedir. Döyüş meydanında düşməni diz çökdürən və kapitulyasiyaya məruz qoyan qalib Azərbaycan bərpa və quruculuq işlərini də qısa müddətdə və yüksək səviyyədə həyata keçirmək əzmindədir. Ötən dövrdə reallaşdırılan layihələr onu deməyə əsas verir ki, respublikamız işğaldan azad olunmuş ərazilərin bərpası, soydaşlarımızın məskunlaşdırılması ilə bağlı qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gələcək. Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərin ölkənin digər bölgələrinə reinteqrasiyasına qısa müddətdə nail olunmasına güclü siyasi iradə nümayiş etdirir”.

Xüsusi Təyinatlı Qüvvələrin giziri, “Qarabağ” ordenli şəhid Şahmar Mənəfovun həyat yoldaşı Bəyim Mənəfova çıxışında bildirib ki, Azərbaycan xalqı artıq 2020-ci ildən hər ilin noyabr ayını böyük sevinc və fərəh hissi ilə qarşılayır: “Çünki Ali Baş Komandanımızın rəhbərliyi, Azərbaycanın igid oğullarının misilsiz şücaəti sayəsində Qarabağ əzəli sahiblərinə geri qaytarıldı. 2020-ci ilin 27 sentyabrı bizi böyük Qələbəyə aparan yolun başlanğıcıdır. Məhz həmin gündən başlayaraq “Qarabağ Azərbaycandır!” deyərək haqq savaşına çıxdıq. Bütün dünyaya, beynəlxalq aləmə qüdrətli, əzəmətli Azərbaycan dövlətinin mövcudluğunu bir daha nümayiş etdirdik. Ölkə Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin əzmi, iradəsi, qətiyyətli mövqeyi, Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində bütün dünya qarşısında başqa bir Azərbaycanı gördü. Cəmi 44 gün davam edən haqq savaşımızda, Vətən müharibəsində şanlı Ordumuz elə bir Zəfər dastanı yazdı ki, bu tarixi qələbəmiz dostu sevindirdi, düşmənlərimizə isə göz dağı oldu”.

Bəyim Mənəfova deyib ki, xüsusi təyinatlı qüvvələrin giziri olan həyat yoldaşı Şahmar Mənəfov 2020-ci il oktyabr ayının 21-də Xocavənd uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlib: “Mənim təsəllim onun xəyallarındakı bütöv Azərbaycanda yaşamağımdır. Bu müddət ərzində qalib ölkənin qalib Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısını hər zaman hiss etmişəm. Mən burada təkcə şəhid ailəsinin üzvü kimi yox, həm də azad Azərbaycanın gənc nəslinin yetişməsində rolu olan bir müəllim kimi iştirak edirəm. Mən çox şadam və qürurluyam ki, bizim gənclərimiz artıq ali təhsil müəssisələri sırasında Qarabağ Universitetini də seçim şansı kimi görə bilirlər”.

O, ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpasına nail olan, xalqımızın əmin-əmanlıq şəraitində yaşamasını təmin edən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlığını bildirib.

Xüsusi Təyinatlı Qüvvələrin mayoru, Vətən Müharibəsi Qəhrəmanı Zaur Hüseynov çıxışında bildirib ki, Vətən müharibəsi Azərbaycan xalqının varlığını, kimliyini qorumaq uğrunda aparılan haqq mübarizəsi idi: “Hər bir azərbaycanlının qəlbində yanıb tutuşan vətən sevgisi, dövlətə bağlılığı və milli kimliyimiz bizi bu zəfərə çatdırdı. Bu müqəddəs yolun hər addımı xalqımızın birliyini, ordumuzun qətiyyətini və dövlətimizin əzəmətini sübut etdi”.

Onun sözlərinə görə, Qarabağın azad olunması ilə nəticələnən Vətən müharibəsi, başda Şuşa Zəfəri olmaqla qazandığımız qələbələr Azərbaycan xüsusi təyinatlılarının və Azərbaycan Silahlı Qüvvələrinin qəhrəmanlıq salnaməsidir: “Bu zəfərdə iştirak edən hər bir döyüşçü, öz həyatını Vətən yolunda fəda edən şəhidlərimiz və qəhrəman qazilərimiz tarix yazdılar. Cəbrayıl, Hadrut, Füzuli, Xocavənd və Şuşa döyüşlərində keçdiyimiz yollar bizə dəyərli bir dərs verdi - Vətən sevgisi hər şeydən üstün gələndə heç bir qüvvə bizi yolumuzdan döndərə bilməz. Ordumuzun hər bir əsgərinin, hər bir zabitinin qəhrəmanlığı bu Zəfərdə xüsusi yer tutdu. Şuşanın azad olunmasında ön sıralarda döyüşmək mənim üçün ən böyük qürur idi, bu müqəddəs torpaqlarda dalğalanan bayrağımızla mən bir daha anladım ki, bu xalq əyilməzdir, məğlubedilməzdir. Şuşa bizim mədəniyyətimizdir. Mən bu gün çox xoşbəxtəm və böyük qürur hissi keçirirəm ki, bu mədəniyyətin dirçəlməsində - Şuşanın azad olunmasında mənim də əməyim olub”.

Vətən Müharibəsi Qəhrəmanı deyib ki, Şuşa Azərbaycan üçün milli qürurdur, mədəniyyətdir, tarixdir: “Azərbaycan əsgərinin Şuşaya bayraq sancması və bu xəbərin Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən xalqa çatdırılması 28 ildən sonra milli qürurumuzun da, mədəniyyətimizin də, tariximizin də azad edilməsini sübut etdi. Azərbaycan xalqı isə Şuşa Qələbəsi ilə öz şanlı tarixinə yenidən qayıtdı və ərazi bötövlüyümüzün bərpa olunması bu Qələbənin sayəsində daha da sürətləndi. Şuşa döyüşləri bütün döyüş əməliyyatları dövründə ən spesifik, ən emosional döyüşlərdən biri oldu. Çünki bu döyüşlərdə Azərbaycan əsgəri hər vasitə ilə qarşıya qoyulmuş hədəfə doğru addımlayırdı. Hətta silahı olmayan süngüsü ilə, süngüsü olmayan isə əlləri ilə düşmənin üzərinə atıldı. Bu elə döyüş idi ki, həmin döyüşlərdə iştirak edənlər həmin anların emosional yükünü, yəqin ki, ömürlərinin axırlarına qədər özləri ilə daşıyacaqlar”.

“Biz 44 günlük Vətən müharibəsində milli iradə ilə, milli ruhla, Vətən sevgisi ilə döyüş meydanında qan tökərək, şəhid verərək, düşməni diz çökməyə məcbur edərək qələbə qazandıq. Qarabağın azadlığı Azərbaycan əsgərinin gücünün, xalqımızın birliyinin, Müzəffər Ali Baş Komandanın sərkərdəlik qabiliyyətinin təzahürüdür. Bu gün biz burada təkcə Qələbəmizi qeyd etmirik, həm də şəhidlərimizin əziz xatirəsini yad edirik. Şəhidlər xalqımızın qəhrəmanlıq tarixinin ən parlaq səhifələrini yazanlardır. Onların hər biri bizim üçün bir qəhrəmanlıq dastanıdır”,- deyən Zaur Hüseynov bildirib ki, bugünkü Azərbaycan güclü, müstəqil və öz haqqını müdafiə etməyi bacaran bir dövlətdir. Prezident İlham Əliyevin qətiyyəti, xalqımızın dövlət başçısına dəstəyi bu Zəfəri daha da möhkəmləndirir.

Çıxış edən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov bildirib ki, 8 Noyabr təkcə hərbi gücümüzün qələbəsinin deyil, həm də xalqımızın birliyi, dözümü və vətənpərvərliyinin güclü bir rəmzidir: “Çünki həqiqi qələbə yalnız döyüşlərin nəticəsi ilə ölçülmür, millətin əzmi, vətənini qorumaq üçün sarsılmaz iradəsi və yenidən qurmaq, yenilik etmək və irəliləmək gücü ilə qeyd olunur. Dörd il öncə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında bir çağırış ilə birləşən Azərbaycan xalqı 30 illik ədalətsizliyə, dünyanın göz yumduğu məsələyə - Ermənistanın işğalçı siyasətinə son qoydu. Rəşadətli Azərbaycan Ordusunun qələbəsi həm də daşıdığımız mənsubiyyətin - milli kimliyimizin, vətənpərvərlik və dövlətçilik dəyərlərimizin real təzahürü idi”.

B.İslamov qeyd edib ki, Vətən müharibəsində qazandığımız tarixi Qələbə yeni dövrün də əsasını qoydu: “Təsadüfi deyil ki, 2020-ci ilədək Azərbaycan gəncliyinin ən ali vəzifəsi işğal altındakı tarixi torpaqlarımızın azad olunması və bu yolda xidmət etməyi özünə borc bilməsi idi. Məhz tarixi Zəfərimiz gənclərimizin daşıdığı bu ali vəzifəyə də böyük bir yenilik gətirdi. Yeni dövrün reallıqları Azərbaycan gəncliyinin üzərinə yeni bir vəzifə qoyur. Prezident İlham Əliyevin Vətən müharibəsindən sonrakı dövrdə çıxışlarına nəzər saldıqda bu vəzifəni daha aydın başa düşürük. Qazanılmış Zəfərin qorunması, daha savadlı, dünyagörüşlü, vətənpərvər yeni nəslin formalaşması, Qələbəmizi və bizə bu Qələbəni yaşadanları ən əsas miras olaraq gələcək nəsillərə ötürmək - məhz bunlar Azərbaycan gəncliyinin yeni dövrün reallıqları fonunda yeni vəzifələridir”.

YAP Gənclər Birliyinin sədri deyib ki, dörd il öncə qazanılmış tarixi Zəfər sadəcə Azərbaycanın ərazi bütövlüyünü bərpa etmədi, həm də bütün dünyaya sahib olduğumuz əsl gücü nümayiş etdirdi: “Ölkəmiz beynəlxalq münasibətlərdə yalnız təmsil olunmur, həm də bütün dünyanın diqqət mərkəzində olan bir çox mövzularda qərarverici rol oynayır. Təsadüfi deyil ki, bir neçə gün sonra Azərbaycan dünyanın ən mötəbər tədbirlərindən birinə - Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi Konfransına ev sahibliyi edəcək. Minlərlə iştirakçının və bütün dünyadan bir çox liderin qatılacağı bu konfransla ölkəmiz beynəlxalq gündəliyin formalaşmasında vacib rol oynayacaq. Bu isə tarixi Qələbəmizlə birgə formalaşan yeni reallıqlara ən bariz nümunələrdəndir”.

“Bu gün Qarabağ yenidən qurulur, dirçəlir. İşğaldan azad olunmuş torpaqlarımıza əsl sahibləri qayıdır. Tarixi Zəfərimizdən dərhal sonra başlanan bu proseslə Azərbaycan sahib olduğu gücün sadəcə ordu gücü yox, həm də mədəni-intellektual güc olduğunu sərgiləyir. Qarabağın hər şəhər, kənd və məhəlləsini yollar və körpülər deyil, Müzəffər Ali Baş Komandanın sahib olduğu bilik və müdriklik qurur. Bu isə gələcək qələbələrin ən böyük müjdəsidir”,- deyə B.İslamov vurğulayıb.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonra 8 Noyabr - Zəfər Gününə həsr edilmiş konsert proqramı təqdim olunub.


















# TDT-nin növbəti sammiti Azərbaycanda keçiriləcək

## Qeyri-rəsmi sammit isə gələn il Macarıstanda baş tutacaq

Tarixin bütün dönəmlərində türklər özlərinin qüdrəti, gücü, zəngin dövlətçilik ənənələri ilə seçilmiş, dünyanın ən üstün dəyərlərə malik sivilizasiyalarından birinə sahib olmuşlar. Türk sivilizasiyası dedikdə bəşəriyyətin inkişafına saysız-hesabsız töhfələr vermiş, qədim mədəniyyətə, incəsənətə, hərtərəfli elmə və biliyə, həmçinin sağlam gücə malik olan sivilizasiya nəzərdə tutulur. Bəşər sivilizasiyası tarixində özünəməxsus yeri olan türk sivilizasiyası əsrlər boyu şərəfli yol qət edərək hazırkı inkişaf səviyyəsinə çatıb. Dünyanın ikili standartlara əsaslanan siyasətinin davam etdiyi bir dövrdə Türk dünyasının birliyinin zəruriliyi özünü daha aydın şəkildə göstərir.

Xalqımız böyük Türk dünyasının önəmli bir parçası olaraq fundamental dəyərlərə malik zəngin türk sivilizasiyasından faydalanmaqla yanaşı, bu sivilizasiyaya öz töhfəsini verməkdən böyük qürur duyur. Azərbaycan TDT-yə üzv olan ölkələrlə qardaşlıq münasibətlərinə malikdir. Türk dövlətlərini birləşdirən ortaq soy-kök, tarix, mədəniyyət və milli dəyərlər ölkələrimizin qarşılıqlı fəaliyyətinin əsasını təşkil edir. Cari ilin sentyabrında isə Latın qrafikalı, 34 hərfdən ibarət Ortaq Türk Əlifbasının qəbul edilməsi türk xalqlarının linqvistik mirasını qorumaqla yanaşı, onlar arasında qarşılıqlı anlaşmanı, eləcə də əməkdaşlığı daha da inkişaf etdirəcəkdir. Həmin ortaq əlifbanın qəbulu türk xalqları arasında qarşılıqlı anlaşmanın və əməkdaşlığın daha da inkişafına töhfə vermək məqsədi daşıyır. Qəbul edilən əlifba ilə türk xalqları elmdən iqtisadiyyata, siyasətdən mədəniyyətə qədər bir çox sahələrdə daha da yaxınlaşacaq.

Azərbaycan türk dövlətləri ilə əlaqələrini ən yüksək formada inkişaf etdirməkdə və vahid türk ailəsinə daha da yaxın olmaqda maraqlıdır və bu istiqamətdə fəaliyyətini uğurla davam etdirir. Dövlətimizin başçısının TDT-yə üzv ölkələrin inteqrasiyasına və inkişafına töhfələri hamıya yaxşı məlumdur. TDT-yə üzv dövlətlər Prezident İlham Əliyevin bu istiqamətdəki fikirlərini bölüşür, eyni zamanda, təşkilatın daha da inkişaf etməsi və nüfuzlu beynəlxalq quruma çevrilməsi üçün səy göstərirlər. Azərbaycanın bu təşkilatla bağlı gördüyü işlər, irəli sürdüyü ideyalar və təşəbbüslər TDT-nin gələcək inkişaf trayektoriyasının nədən ibarət olacağına istiqamət verən mayak rolunu oynayır.



Türk Dövlətləri Təşkilatına üzv ölkələr arasında yaxın dostluq və qardaşlıq əlaqələrinin olması təşkilatın inkişaf perspektivlərini şərtləndirən əsas amillərdən biridir. Münasibətlərimiz dostluq və qardaşlıq prinsiplərinə əsaslanır. Azərbaycan Prezidenti İlham Əliyev daim türkdilli ölkələrlə əlaqələrin inkişafına böyük önəm verir. Prezident İlham Əliyevin bu il iyulun 6-da Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündəki çıxışında qeyd etdiyi kimi: "Türk Dövlətləri Təşkilatı dünya miqyasında güc mərkəzlərinin birinə çevrilməlidir. Biz böyük coğrafi məkanı əhatə edirik, üzv ölkələrdə müsbət demoqrafik dinamika müşahidə olunur, hərbi potensialımız döyüş meydanlarında özünü dəfələrlə göstərmişdir. Zəngin təbii resurslarımız, onların nəqli üçün müasir infrastruktur, Mərkəzi Asiyanı, Qafqazı Aralıq və Qara dəniz limanları ilə birləşdirən nəqliyyat dəhlizləri, zəngin və qədim tariximiz, mədəniyyətimiz bizim böyük sərvətimizdir".

Türk Dövlətləri Təşkilatının 11-ci Zirvə görüşü isə noyabrın 6-da Qırğızıstanın paytaxtı Bişkek şəhərində keçirildi. "Türk Dünyasını Gücləndirmək: İqtisadi İnteqrasiya, Davamlı İnkişaf, Rəqəmsal Gələcək və hamı üçün Təhlükəsizlik" şüarı altında keçirilən sammitdə üzv ölkələr yenidən bir araya gələrək, sonuncu Zirvə görüşündən keçən dövr ərzində görülmüş işlər və əldə olunmuş nailiyyətləri qiymətləndirib, təşkilatın inkişaf etdirilməsi və fəaliyyətinin daha da genişləndirilməsi istiqamətində müzakirələr aparıblar.

Sammitin yekununda Bişkek Bəyannaməsi də daxil olmaqla 16 sənəd imzalanıb. Sənədlər sırasına "Yaşıl baxış. Dayanıqlı gələcək naminə birliyin qəbulu" qərarı, Bişkek şəhərinin 2025-ci il türk dünyasının rəqəmsal paytaxtı elan edilməsi, TDT-nin daimi nümayəndələri haqqında əsasnamə, Türk Dünyası Xartiyasının qəbulu haqqında qərar, türk əməkdaşlıq təşkilatlarının bayraqları haqqında qərar və s. daxildir.

Dövlət başçıları sammitdə Türk Dövlətləri Təşkilatının yeni bayrağı qəbul olunması haqqında da qərar qəbul ediblər. Bayraq Türk dünyasına xas olan bütün rəmzləri, ümumi irs və hərtərəfli əməkdaşlığı özündə mükəmməl şəkildə əks etdirir. Bu dəyərlər isə Türk Dövlətləri Təşkilatının rəhbər tutduğu missiyanın yerinə yetirilməsində xüsusi əhəmiyyətə malikdir.

Bundan əlavə, Bişkek Bəyannaməsinə əsasən, TDT ölkələrinin liderləri 2025-ci ildə rəsmi sammitin Azərbaycanda, qeyri-rəsmi sammitin isə Macarıstanda keçirilməsini təsdiqləyiblər. Həmçinin, təşkilata sədrlik Qazaxıstandan Qırğızıstana keçib.

Bütövlükdə, Türk Dövlətləri Təşkilatının 11-ci Zirvə görüşü üzv dövlətlər arasında sıx əməkdaşlıq əlaqələrini və inteqrasiyanı daha da gücləndirməyi hədəfləməklə, bu ölkələrə aid ən vacib məsələlərin müzakirəsi üçün mühüm platforma rolunu oynayır.

*Nardar BAYRAMLI*

# İqtisadi potensialın güclənməsi üçün yeni imkanlar yaranıb

Azərbaycanın ərazi bütövlüyünün bərpasından sonra iqtisadi potensialının gücləndirməsi üçün yeni imkanlar yaranıb. Hazırda həyata keçirilən müasir inkişaf ideologiyasına əsaslanan yeni sosial-iqtisadi artım modeli iqtisadiyyatın qarşıdakı illərdə daha da böyüməsi üçün dərin zəminlər hazırlayır. İqtisadiyyat Nazirliyinin şöbə müdiri Hüseyn Hüseynov "Yaşıl iqlim maliyyəsi və karbon qiymətqoyma siyasəti" mövzusunda keçirilən seminarda bildirib ki, ölkəmizin ortamüddətli iqtisadi proqramı olan "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrası nəticəsində iqtisadiyyat hər il orta hesabla 3-4 faiz, qeyri-neft ÜDM-i isə illik orta hesabla 5 faiz artacaq. Yaxın 2 ildə sahibkarlıq sektorunun potensialları da güclənəcək və özəl sektorun iqtisadiyyatda payı 88 faizə çatdırılacaq.

İN-nin şöbə müdiri strategiyanın "yaşıl artım" hədəflərinin həyata keçirilməsində də mühüm əhəmiyyətindən bəhs edərək bildirib ki, sənədin icrası nəticəsində ölkə üzrə ümumi ərazidə yaşıllığın payı 12 faizdən 12,3 faizə qədər artacaq, istifadəyə yararsız torpaq sahələrinin payı 25 faizdən 15 faizədək azalacaq. Tullantıların təkrar emalı prosesinin əhatə dairəsi 20 faiz (regionlarda 10 faiz) təşkil edəcək. İqlim dəyişikliyinə qarşı mübarizə məqsədilə ekoloji təmiz nəqliyyat vasitələrindən və digər "yaşıl texnologiyalar"dan istifadə genişləndiriləcək. Elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payı 2026-cı ilədək 24 faizə çatdırılacaq.

**Əlverişli xarici sərmayə mühitinin təmin edilməsi**

Qeyd edək ki, 2022-2026-cı illərdə yeni sosial-iqtisadi inkişaf modelinin konsepti olan strategiya sənədi Azərbaycanda çoxşaxəli inkişafın yeni keyfiyyət səviyyəsini müəyyən etmək məqsədi daşıyır. Həmin çərçivəyə əsasən, ölkəmizdə dayanıqlı, inklüziv iqtisadi artım templəri əsasında iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı mühüm prioritetlər müəyyənləşib. Strateji dövrdə inkişafın əsas sütunu qeyri-neft sektoru, bu sektorun əsas hərəkətverici qüvvəsi isə sahibkarlar ordusu hesab edilir. Dövlət həmin sütunların dinamikliyini artırmaq üçün




qüvvəsini və resurslarını rəqabətli və dayanıqlı iqtisadi fəaliyyət mühitinin dəstəklənməsinə yönəldəcək. Həmçinin, real sektorun və sahibkarlığın maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, rəqabət qabiliyyətinin gücləndirilməsi, sahibkarlığın dəstəklənməsi və strateji sahələrə investisiyaların təşviqi, eləcə də vergi-gömrük inzibatçılığı mexanizmlərinin təkmilləşdirilməsi üçün müvafiq addımlar atılacaq.

Hökumətin yürütdüyü siyasətə əsasən, qarşıdakı dövrdə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, yerli istehsalın genişləndirilməsi üçün əlverişli xarici sərmayə mühitinin təmin edilməsi və investorların innovasiya yönümlü sahələrə cəlb edilməsi əsas çağırışlardan biri olacaq.

**Azad ərazilər vahid iqtisadiyyatın dəyər zəncirinə cəlb edilir**

Yeni inkişaf modeli işğaldan azad olunmuş əraziləri də əhatə edilməklə vahid iqtisadiyyat - müasir dəyər zəncirinin qurulmasını da təşviq edir. Bu ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyasının təmin edilməsi, əlverişli biznes mühitinin və vergi-gömrük təşviqlərinin əhatəsinin daha da artırılması nəzərdə tutulur. Belə ki, ərazilərə yüksək texnoloji tutumlu investisiyaların cəlbi məqsədilə optimallaşma və stimullaşma tədbirləri davam etdiriləcək, burada çalışan biznesə dövlət dəstəyi tədbirləri, o cümlədən maliyyə təminatı imkanları yaxşılaşdırılacaq, kreditlərin və investisiyaların sığortalanması mexanizmi yaradılacaq.

Bu kompeks tədbirlərin icrası nəticəsində azad ərazilərdə "ağıllı" biznes modellərinin, iqtisadi zonaların, müasir istehsal infrastrukturu olan sənaye parkları və məhəllələrin, aqrar istehsal və aqrar emalı sahələrinin yaradılması istiqamətində işlər görüləcək. Ekoloji təmiz və iqtisadi cəhətdən səmərəli bərpa olunan enerji mənbələrindən istifadə genişləndirilməklə "yaşıl enerji zonası" konsepsiyası tətbiq ediləcək. Həmçinin, Qarabağ bölgəsinin turizm biznesi üçün cəlbedici, turistlər üçün əlçatan, unikal, keyfiyyətli və rəqabətli turizm xidmətləri təklif edən turizm destinasiyasına çevrilməsi layihələri icra olunacaq. Nəticədə, ümumi məhsul buraxılışında, ixracda və məşğulluqda işğaldan azad edilmiş ərazilərin payı davamlı artacaq.

**Qeyri-neft sektorunun ÜDM-də payı 77,8 faizə çatacaq**

Beləliklə, azad ərazilərin iqtisadi gücü vahid inkişaf konseptinin tərkib hissəsi olmaqla milli iqtisadiyyatın və dəyər zəncirinin ayrılmaz hissəsinə çevriləcək. Bu isə ölkəmizin artım və dəyər potensialını əhəmiyyətli dərəcədə böyüdəcək. İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunmuş proqnozlara əsasən, 2025-ci ilin sonuna ÜDM-in həcmi 129,2 milyard manat, o cümlədən qeyri-neft ÜDM-in həcmi 92,2 milyard manat təşkil edəcək. 2028-ci ildə isə ÜDM-in 150,8 milyard manata, o cümlədən qeyri-neft ÜDM-in həcminin 117,2 milyard manata qədər artacağı gözlənilir. Orta müddətdə ÜDM-in real artım tempinin orta illik 3,3 faiz, qeyri-neft ÜDM-in isə 5 faiz olacağı proqnozlaşdırılır. 2024-cü ildə neft-qaz sektoru üzrə ÜDM-in real ifadədə 0,3 faiz artacağı ehtimal edilir. Bu dinamika sonrakı illər üzrə davamlı şəkildə yüksələcək və 2028-ci ildə ÜDM-in tərkibində qeyri-neft sektorunun payı daha da artaraq 77,8 faizə çatacaq, neft-qaz sektorunun payı isə 22,2 faizə bərabər olacaq.

*E.CƏFƏRLİ*

# Məskunlaşma və nəhəng quruculuq meydanı

## Azad ərazilərdə 30 min nəfər yaşayır

Böyük Qayıdışın təməlinin qoyulduğu Cəbrayılın Cocuq Mərcanlı kəndindən başlayan doğma yurda geridönüşün 2020-ci ildə qazanılmış Zəfərdən cəmi 2 il sonra Zəngilan rayonunda inşa edilmiş "ağıllı kənd"ə köçlə yeni səhifəsi açılıb. 30 ilə yaxın məcburi köçkün həyatı yaşayan insanların mərhələli şəkildə öz doğma dədə-baba yurdlarına qayıdışı geniş vüsət almağa başlayıb. Bu proses sürətlə və fasiləsiz davam etməklə Laçın şəhəri, Zabux və Sus kəndlərinə, Suqovuşan, Füzuli, Şuşa, Xocalı, Cəbrayıl və Xankəndinə qayıdışı da təmin edib. Bugünədək işğaldan azad olunmuş ərazilərimizə 9 minə yaxın keçmiş məcburi köçkün köçürülüb ki, bu da qısa dövr üçün olduqca böyük göstəricidir.

**Yerli sakinlərin sayı 9 min nəfər olsa da...**

Azad ərazilərimizdə əbədi məskunlaşan doğma sakinlərin sayı 9 min nəfər olsa da, ümumilikdə, Qarabağ və Şərqi Zəngəzurda bundan 3 dəfə çox insan yaşayır. Nəhəng quruculuq meydanına çevrilmiş bu bölgədə daha da böyüyən bərpa-quruculuq işlərinə, kommunal və sosial infrastrukturların qurulmasına, habelə yaşayış binalarının və kəndlərin salınmasına, inzibati binaların, obyektlərin, turizm və xidmət müəssisələrinin tikintisinə minlərlə insan cəlb edilib. Bölgədə yol, körpü, qaz, su, kanalizasiya, işıq, rabitə xətlərinin çəklişi, məktəb, xəstəxana, uşaq bağçası, idman, mədəniyyət evləri, mağaza və s. tikililərin inşasına saysız şirkət və podratçı təşkilatlar qoşulub. Bu layihələrdə inşaat, yenidənqurma, təmir, quraşdırma, konstruksiya, təchizat, avadanlıq və digər işlərdə 30-a yaxın şirkətin 2000-dən çox işçisi fəaliyyət göstərir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əhalinin qayıdışının təmin edilməsi ilə paralel şəkildə müxtəlif sosial və istehsal obyektləri, emal, sosial-iqtisadi xarakterli müəssisələr də inşa edilir. Həmin şəhər və kəndlərdə orta məktəb və uşaq bağçaları, tikiş müəssisəsi, çörəkbiçirmə sexləri, mağaza və marketlər fəaliyyət göstərir ki, buarada yüzlərlə insan çalışır. Eləcə də, bölgədə "KapitalBank"ın və digər bankların filialları, "Asan" və "Dost" Xidmət mərkəzləri, "Azərcell", "Bakcell", "Nar" şirkətinin, digər rabitə və mobil operatorların xidmət müəssisləri, iri supermarket və ticarət mərkəzləri, "Azərenerji", "Azəriqaz", "Azərpoçt", Su Ehtiyatları Dövlət Agentliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və digər qurumların yerli idarələri fəaliyyət göstərir ki, onların əməkdaşlarının sayı bir neçə min nəfərə bərabərdir.



**Tikinti, təmir, təchizat və digər layihələrdə minlərlə insan çalışır**

Bu bölgədə hotel və turizm obyektlərinin əsası qoyulub, bir neçə hotel istifadəyə verilib. Şuşada "Qarabağ" və "Xarıbülbül" hotelləri fəaliyyət göstərir, Suqovuşanda böyük turizm istirahət kompleksinin yaradılması işləri davam etdirilir, Zəngilan rayonunun Ağalı kəndində "Ağalı" hoteli, Xankəndidə "Qarabağ" və "Palace" hotelləri istifadəyə verilib. Təkcə, hotel və istirahət mərkəzlərində 400-dən çox insan işləyir. Füzuli və Zəngilan Beynəlxalq Hava Limanı istifadəyə verilib və burada da yüzlərlə insan çalışır.

Bölgədə 20-dən çox tikinti şirkəti fəaliyyət göstərir. Həmçinin, dövlət-özəl tərəfdaşlığı proqramı çərçivəsində böyükhəcmli infrastruktur və tikinti işləri icra olunmaqdadır, bu inşaat işlərinə 10-a yaxın özəl şirkət cəlb edilib. Təkcə, Ağdam şəhərində özəl tikinti şirkəti "PMD Group" və podratçı şirkətlər tərəfindən icra edilən inşaat işlərində 300-dən çox işçi çalışır. Həmin şirkət digər podratçıları Suqovuşan, Hadrut və digər yerlərdə də inşaat işlərinə qoşub ki, burada da yüzlərlə insan işlə təmin olunub.

**Bölgədə 5 mindən çox sahibkarlıq subyekti fəaliyyət göstərir**

Azad ərazilərdə iri sənaye şirkətləri, biznes subyektləri, kənd təsərrüfatı və aqrar fəaliyyətlərlə məşğul olan mülkiyyətçilər, turizm, xidmət, ticarət, ictimai iaşə və digər kommersiya növləri ilə məşğul olan minlərlə sahibkar məskunlaşıb. Onların sırasında 2 il əvvəl istifadəyə verilmiş Zəngilan rayonundakı "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksində 200-dən çox insan çalışır. Cəbrayıl rayonundakı "Araz Vadisi İqtisadi Zonası" və Ağdam Sənaye Parkında 10-dan çox müəssisə fəaliyyət göstərir ki, burada yüzlərlə insan işləyir. Həmçinin Türkiyə, İsrail, Rusiya və digər ölkələrə məxsus sahibkarlar da bu ərazilərdə bir neçə investisiya layihəsi icra etməkdədir. Türkiyə şirkətlərindən "Eti Bakır A.Ş.", "Artvin Maden A.Ş."-nin 100-dən çox nümayəndəsi burada fəaliyyət göstərir.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət Proqramı"na əsasən, bölgədə sahibkarlar üçün geniş meydan açılıb. Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 170-dən çox biznes layihəsi icra olunur, müxtəlif iqtisadi sektorlarda fəaliyyət göstərən mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin sayı 5 mindən çoxdur.

Bütün bu çoxşaxəli layihələrin sırası genişlənir və azad ərazilərdə əbədi məskunlaşan sakinlər və burada çalışan insanların sayı daha da artacaq.

*ELBRUS CƏFƏRLİ*

# İnvestisiyaların təşviqi...

## Regionların sosial-iqtisadi inkişafı üçün mühüm amil!

Azad edilmiş ərazilərin əsaslı şəkildə bərpa edilməsi və orada müasir infrastrukturun yaradılması bu gün Qarabağın inkişafının əsas strateji istiqamətlərindən biridir. Çünki bərpa prosesi həyata keçirilmədən həmin ərazilərin sosial-iqtisadi inkişafını təmin etmək mümkün deyil. Yenidənqurma və bərpa prosesinin həyata keçirilməsi Azərbaycanda ümumi iqtisadi inkişafa təkan verəcək, yeni iş yerlərinin yaranmasına şərait yaradacaq.

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı strategiya hazırda azad edilmiş əraziləri də əhatə edir və dövlət dəstəyi tədbirləri bu bölgədə icra olunan müxtəlif infrastruktur layihələrində özünü göstərir. Bir zamanlar ermənilər tərəfindən dağıdılmış, viran qoyulmuş həmin rayonların dirçəldilməsi hökumət üçün əsas prioritet təşkil edir. Həmin ərazilərdə müxtəlif obyektlərin tikilib istifadəyə verilməsi, yenilərinin təməlinin qoyulması ilə yanaşı, yeni avtomobil magistrallarının, dəmir yollarının, hətta beynəlxalq səviyyəli hava limanlarının istifadəyə verilməsi, yenilərinin də inşası bu kompleks tədbirlərin tərkib hissəsidir.

**Məqsədimiz kənd təsərrüfatını inkişaf etdirməkdir**

Mövzunu "Yeni Azərbaycan"a dəyərləndirən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, millət vəkili Vüqar Bayramov bildirib ki, yerli və xarici investisiyaların həcmi artır və bu da həmin bölgənin inkişafının təmin edilməsində mühüm rol oynayır: "Yaxın illərdə bu tədbirlər sayəsində ölkəmiz iqtisadi baxımdan mühüm yerlərdən birinə çevirəcək. Hazırda Qarabağda infrastruktur layihələr üzrə işlər davam etməkdədir. İnsanların doğma yurd-yuvasına böyük qayıdış layihəsini həyata keçirmək üçün ilk öncə onlara yaşayış məntəqələri tikmək lazımdır. Bundan başqa iş yerləri açılmalıdır. Hazırda Qarabağda planlı şəkildə işlər gedir. Burada kənd təsərrüfatı obyektləri, gələcəkdə emal müəssisələri yaradılacaq. Ən böyük problem hazırda minalardır. Təbii ki, vaxt itirmədən gündəlik işlər görülür. Amma yenə də məlumatlar gəlir ki, mülki insanlar, mütəxəssislər mina partlaması nəticəsində xəsarət alıb, həyatını itirib. Bizim əsas məqsədimiz kənd təsərrüfatını regionlarda sürətlə inkişaf etdirməkdir ki, emal zavodları ora köçsün. Düşünürəm ki, bu baxımdan kiçik və orta sahibkarlığın, fermer təsərrüfatının inkişafının böyük rolu var".

**Makroiqtisadi göstəricilərimiz yüksəlir**

Millət vəkili qeyd edib ki, hazırda regionlarımızda sosial-iqtisadi inkişaf gedir. Dövlətin də birmənalı siyasəti bu templəri sürətlə artırmaqdır: "Məsələn, bütün makroiqtisadi göstəricilərimiz artım tempi ilə yüksəlir. Bu, birmənalıdır və o deməkdir ki, Prezidentin iqtisadi siyasəti tamamilə düzgündür və uğurludur. Biz daha çox kiçik və orta sahibkarlığın inkişafına önəm veririk. Əsas diqqət həmin sahənin inkişaf etdirilməsinə yönəlmədir və ÜDM-də payının artması təşviq olunmalıdır. İnkişaf etmiş ölkələrdə, o cümlədən Yaponiyada, ABŞ-da, Avropada ümumi daxili məhsulda kiçik və orta sahibkarlığın ümumi çəkisi 55 faizi keçir. Bu, İspaniyada 65 faizdir. Ona görə də bizim ölkədə də orta sahibkarlığın milli məhsulda dəyərinin artırılmasına nail olmaq lazımdır. Bu siyasət həm də işsizliyin səviyyəsinin daha da aşağı salınmasında mühüm rol oynaya bilər".



**Regionlara investisiyaların cəlb edilməsi artır**

Deputatın sözlərinə görə, Vətən müharibəsində əldə olunan qələbə ilə Azərbaycanda yeni inkişaf mərhələsi başlanıb: "Sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması regionlarımızdakı iqtisadiyyatın ümumi arxitekturasının müəyyən edilməsində rolunu və statusunu daha da möhkəmləndirəcək. Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi üçün hazırda yeni regional iqtisadi mərkəzlərin yaradılması ilə növbəti keyfiyyət mərhələsinə qədəm qoyulur. Eyni zamanda, regionlarda iş yerlərinin açılması və məşğulluğun təmin olunması istiqamətində kənd təsərrüfatı üçün vacib olan aqroparkların və iri fermer təsərrüfatlarının yaradılması istiqamətində ciddi işlər aparılır. Demək olar ki, bir çox regionlara ixtisaslaşdırılmış şəkildə investisiyaların cəlb edilməsi artmaqdadır. Çünki investisiyaların təşviqi sahəsində görülən işlər regionların inkişafına müsbət təsir göstərir.

Hazırda icra olunan dövlət proqramı da bölgələrin sürətli inkişafını özündə ehtiva edir. Bu gün regionlarımızın inkişafını şərtləndirən əsas amil odur ki, Azərbaycanda regionların inkişafına ölkənin davamlı həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi kimi baxılır. Məhz bu yanaşmanın nəticəsində regionların inkişafı üzrə ayrıca dövlət proqramları hazırlanaraq icra edilir".

*Yeganə BAYRAMOVA*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə hazırlanmışdır

# Trampın qələbəsi...

## Dünyada nəyi, necə dəyişəcək?

**Donald Trampın ABŞ prezidenti seçilməsi qlobal dünya üçün bir sıra mühüm yeniliklər yaradacaq. İstər siyasi, istərsə də iqtisadi mənada bu yeniliklər artıq müzakirə edilməkdədir. ABŞ-ın növbəti mərhələdə Aİ ilə, NATO ilə münasibətlərə yenidən baxacağı, paralel olaraq Rusiya-Ukrayna müharibəsi haqqında yeni bir yanaşma sərgiləyəcəyi, Uzaq Şərq siyasətində yeniliklərin yaşanacağı istisna olunmur.**

## Ağ Evin yeni administrasiyasının xarici siyasətinin əsas istiqamətləri...

### NATO narahatdır, Aİ isə...

İlk olaraq Aİ və NATO məsələsinə yanaşma... Donald Tramp hələ seçki kampaniyası dövründə ABŞ-ın NATO da daxil olmaqla beynəlxalq alyanslarda iştirakının zəruriliyinə yenidən baxacağına söz vermişdi. O, bu fikri 2017-2021-ci illərdə birinci prezidentliyi dövründə də ifadə etmişdi - Amerikanın bir sıra müqavilə və təşkilatlardan çıxmaq üçün cəhd edəcəyini bildirmişdi. Bu fikirdən əl çəkilməsi üçün isə bir yol var - Tramp bildirir ki, NATO müttəfiqləri onları müdafiə etməsi üçün ABŞ-a ödəniş etməlidir.

Aİ-yə gəldikdə isə siyasi münasibətlərin gərgin olacağı gözlənilir. Qərb siyasi analitikləri bildirir ki, Avropanın aparıcı dövlətləri Trampın qələbəsinə inanmadıqları üçün onunla əlaqəni tam "dayandırmışdılar" - hətta qələbəsi etiraf olunduqdan sonra da Trampı təbrik etməyə "tələsməmişdilər". Trampın mühacir məsələsinə olan radikal yanaşması Aİ-nin maraqları ilə uzlaşmır - Avropa ötən 4 ildə istər Yaxın, istərsə də Uzaq Şərqdən gələn "mühacirət karvanının" üzünü ABŞ-a tərəf yönləndirmişdi. İndiki halda, Trampın mühacir məsələsinə yanaşmasını bilən "köhnə qitə" təmsilçiləri növbəti mərhələdə onsuz da bərbad halda olan Avropanın demoqrafik durumunun daha da ağırlaşacağını proqnozlaşdırırlar. Paralel olaraq, artıq ABŞ öz maraqlarını Avropa ilə də müzakirə etməyəcək - Avropa mediası yazır ki, istər Fələstin-İsrail münasibətlərinə, istərsə də Rusiya-Ukrayna məsələsinə fərqli baxış sərgiləyəcək Tramp adminstrasiyası Avropanı "quru yurdda" qoyacaq. Sirr deyil ki, Tramp İsraillə Fələstinlə düşmənçiliyi dayandırmağa çağırır - həmçinin Ukraynaya təmənnasız yardımın göstərilməsini məhdudlaşdırmaq və Rusiya ilə münaqişəni həll etmək niyyətindədir.



### İqtisadi eskalasiyanın yeni mərhələsi...

Trampın seçilməsi ABŞ-ın Çinlə münasibətlərinə də yeni nəfəs gətirəcək - siyasi ekspertlər düşünür ki, Trampın proqramı ilk növbədə tariflərin artırılmasını nəzərdə tutur: bütün idxallar üçün 10-20 faizə, Çindən gələn məhsullar üçün 60 faizə, beynəlxalq ödənişlərdə dollardan imtina edən ölkələrdən gələn mallar üçün isə 100 faizə qədər artırılması olduqca ciddi qəbul edilməlidir. Bunun isə ABŞ ilə Çin arasında gərginliyi artıracağını indidən demək olar. Təsadüfi deyil ki, Çinin əsas indeksi olan "Shanghai Composite" noyabrın 6-da 3 faiz ucuzlaşıb. Ekspertlər Ağ Evdə yeni hakimiyyətin formalaşmasını Vaşinqton və Pekin arasında "iqtisadi eskalasiyanın" yeni mərhələsi kimi qiymətləndirir.

### Birinci görüləsi iş...

Ən diqqətçəkən məqamlardan biri təbii ki, Trampın Rusiya-Ukrayna müharibəsinə baxışıdır. Respublikaçı yeni prezident hələ seçki kampaniyası dövründə münaqişəni bitirəcəyinə söz vermişdi - hətta o bildirmişdi ki, seçkinin nəticələri bəlli olan kimi Kiyevə və Moskvaya zəng vuracaq. Ekspertlərin fikrincə, Rusiya üçün Trampın təklif etdiyi siyasətin həm müsbət, həm də mənfi nəticələri ola bilər: Trampın münaqişəni rekord müddətdə bitirmək istəyi Rusiya və dünya iqtisadiyyatı üçün müsbət amildir, çünki sanksiyaların sürətlə ləğvi beynəlxalq ticarət dövriyyəsinin canlanmasına səbəb olacaq. Amma bunun reallaşması vaxt tələb edəcək. Səbəb isə ortadadır - çox güclü səlahiyyətlərə malik olsa belə, ABŞ prezidenti xarici siyasəti təkbaşına müəyyən etmir. Bununla belə, ABŞ-ın yeni administrasiyası iqtisadi artımı daha fəal şəkildə stimullaşdırmaqda qərarlıdırsa, birinci görüləsi iş Mərkəzi Avropada silahları susdurmaq olmalıdır. "Finam" analitikləri qeyd edirlər ki, Tramp sanksiyalar rejiminin yumşaldılmasını və enerji ixracının təşviq edilməsinin tərəfdarıdır. Bu da Rusiya neftinə tələbatın artmasına yol açacaq.

### Dünyanı daha gərgin ticarət müharibəsi gözləyir...

Donald Trampın 47-ci prezident kimi Ağ Evə qayıtmasının dünyada hansı yeniliklərə yol açacağı ilə bağlı fikirlərini bölüşən "Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev bildirib ki, Trampın qələbəsi elan olunan kimi Avropanın, xüsusilə Almaniyanın maşınqayırma sənayesində çaxnaşma başladı. Yeni prezident Avropadan idxal olunan bir sıra mallara, o cümlədən avtomobillərə 10 faizlik rüsum tətbiq ediləcəyini bildirib: "Almaniyanın avtomobil istehsalçıları Assosiyasiyası" ABŞ-ı bu qərardan çəkindirmək üçün lazım olan hər şeyi edəcəyini bildirir. Amma hansısa bir dəyişikliyə nail olacaqları şübhə doğurur".

A.Quliyev bildirib ki, Trampın birinci prezidentliyi dönəmində Avropa poladına və alüminiumuna tətbiq etdiyi 25 faizlik tarifin götürülməsi ətrafında mübahisələr hələ də davam edir. Bundan başqa Trampın Çin elektromobillərinə 0,6 faiz tarif tətbiq edəcəyi barədə bəyanatı da qarşıdakı dövrdə dünyanı daha gərgin ticarət müharibəsinin gözlədiyini deməyə əsas verir: "Məlumdur ki, buna qədər Avropa Birliyi də Çin avtomobillərinə tarif tətbiq edib. Beləliklə, bir yandan Trampın, digər yandan Avropanın Çini sıxışdırması Pekinin Rusiyaya daha çox sığınmasına səbəb ola bilər. Bəlkə də Tramp Rusiya ilə münasibətləri yumşaltmaq cəhdləri göstərəcək və bununla Çin və Rusiyanın bir- birinə daha çox yaxınlaşmasının qarşısını almağa çalışacaq. Əgər bu taktika oynanılarsa, demək, son hədəf Çini təkləməkdir. Trampın Çin və Rusiyanı bir - birindən qopara biləcəyi isə inandırıcı görünmür".

*P. SADAYOĞLU*

---

# Prezident seçkiləri dolları və səhmləri bahalaşdırdı

## Trampın iqtisadi hədəfləri qlobal iqtisadiyyat üçün dəyişikliklər vəd edir

ABŞ-da keçirilən prezident seçkilərində Donald Trampın qalib gəlməsi cəmi bir neçə saat sonra həm bu ölkənin özünün, həm də ümumilikdə, qlobal iqtisadiyyatın müxtəlif sektorlarında, ələlxüsus da birjalarda öz siqnallarını verib. Amerikanın aparıcı fond birjalarında istiqraz və bondların, səhmlərin, digər qiymətli kağızların bazar indeksləri əvvəlki günlərlə müqayisədə 2-5 faiz artımlar nümayiş etdirib. Maliyyə bazarında kriptovalyutaların qiymət sıçrayışları daha həyəcanverici olub, rəqəmsal valyutaların indeksləri 4-5 faiz artmaqla maliyyə seqmentlərində son ayların ən yüksək artımını qeydə aldırıb. Xüsusilə də, bitcoinlərin tranzaksiyaları sürətlə dövr edib, bu elektron pulun qiyməti birja tarixində ilk dəfə olaraq 75 min dollara yüksəlib. Həmçinin, ABŞ bondlarında 4,5 faiz artımlar baş verib. Aparıcı "S&P 500" indeksi əhəmiyyətli dəyər qazanıb.




Seçkilər ABŞ-ın pul-valyuta bazarına da təsirsiz ötüşməyib. Dollar digər valyutalarla nisbətdə 2,2 faiz güclənib. Eləcə də ABŞ birjalarında baş verən pozitiv dəyişikliklər digər aparıcı ölkələrin fond birjalarına və bazarlarında volatilliyə də səbəb olub. İlk təsirlər Avrozonada hiss edilib, avro dollara nisbətən 2 faiz ucuzlaşıb və noyabrın 7-də eyni kurs qalmaqda davam edib. Eləcə də Asiya və Avropanın fond indekslərində də hərəkətlilik baş verib.

**Avropa və digər regionlarda gözləntilər...**

ABŞ-ın yeni iqtisadi siyasətində müasir sənaye innovasiyalarına, "rəqəmsal iqtisadiyyat" liderlərinə dəstək veriləcəyi də şübhə doğurmur, bu istiqamətdə qlobal maliyyə mühəndisləri üçün yeni potensial imkanların genişlənəcəyi də istisna deyil. Xüsusilə də, "yaşıl maliyyə" investorlarının bazarda yeni dəyərlər yaratması üçün liberal iqtisadi qərarların alınacağı, "Tesla" və digər karbon emissiyalarına qarşı sənaye siyasəti yürüdən şirkətlərin qlobal bazar üstünlüyünün artacağı ehtimal edilir. Bu xüsusda dünyanın ən böyük investorlarından biri olan Elon Maskın elektromobil, "yaşıl sənaye" layihələrinin dünya bazarında daha ön plana çıxacağını da gözləmək mümkündür.

Beynəlxalq maliyyə bazarının iri təmsilçiləri və investorlar Trampın ikinci prezidentlik dönəmində bir sıra radikal iqtisadi qərarların qəbul ediləcəyini fərz edirlər. İlk növbədə, ABŞ-ın iqtisadi siyasətində "ilk növbədə Amerika" prinsipinin əsas götürüləcəyi və iqtisadi-sosial, investisiya üzrə tədbirlərin həyata keçirilməsində bu ölkənin öz maraqlarının daha ön plana çıxarılacağı gözlənilir. Belə ki, Bayden hökuməti daha çox regional iqtisadi siyasətə yer verərək başqa coğrafiyalarda maliyyə-investisiya təşəbbüslərini irəlilətməyə çalışırdı ki, bu, əksər hallarda yerli investorların rəqabət imkanlarını məhdudlaşdırırdı. Bu prosesin nəticəsidir ki, ABŞ-da investorların yerli sektorlara sərmayələri azalıb, sənaye və maliyyə seqmentlərində iqtisadi aktivlik yavaşıyıb, işgüzar mühit zəifləyib və ölkədə tələb xeyli dərəcədə aşağı düşüb. Məhz bu baxımdan Trampın milli iqtisadi proqramlar çərçivəsində investorlar üçün yeni pəncərələr açacağına ümidlər daha böyükdür.

Amerikanın maliyyə holdinqləri və səhmdarları artıq bu ssenarilər üzrə planlarını nizamlayaraq daxili bazara yönəlik investisiya siyasətlərində korrektələr etmək barədə düşünürlər. Onların nikbinliyini artıran əsas fundamental amillərdən biri Trampın seçkilərdən sonra verdiyi ilk mesajlarda əvvəlki iqtisadi kurs üzrə liberal islahatlara xüsusi üstünlük verəcəyi, birinci prezidentlik dövründəki iqtisadi siyasət tədbirlərini genişləndirəcəyi barədə nəzərə çarpan fikirlərdir.

**Vaşinqtonun Türkiyə ilə iqtisadi təmasları güclənə bilər...**

Amerikanın iqtisadi siyasətində Avropa ilə ənənəvi münasibətlərin saxlanılacağı sirr deyil, ancaq bu ölkə dominant iqtisadi güc maraqlarını möhkəmləndirməklə Avrozonanın maliyyə sektorlarında dəyişkənlik yarada bilər. Xüsusilə də Bayden hakimiyyəti dövründə avro ilə rəqabətdə ucuzlaşan dolların yenidən dünya valyutası kimi dəyərinin üstün mövqeyə yüksələcəyi gözləniləndir.

ABŞ-ın Rusiya ilə münasibətlərində müəyyən yumşalmaların baş verəcəyi ehtimal edilir ki, bu, MDB və yaxın coğrafiyalarda iqtisadi proseslərə də ciddi təsir göstərə bilər. Xüsusilə də, Rusiya iqtisadiyyatına qarşı qlobal təzyiqlərin, bu ölkəyə qarşı silah kimi istifadə edilən dollar təhdidlərinin azalması fonunda maliyyə sabitliyi və iqtisadi imkanların yaxşılaşmasını gözləmək olar ki, bu da böyük bir iqtisadi zonada canlanmanı də hərəkətə gətirə bilər. Eləcə də, Türkiyənin ABŞ ilə əvvəlki yaxın münasibətlərinin bərpa olunması ehtimalı güclüdür. Bayden administrasiyasının Ankaraya qarşı manipulyativ iqtisadi qərarları, qardaş ölkənin Qara dənizdə və Kiprin şimalında aşkar etdiyi qaz və neft yataqlarında apardığı geoloji kəşfiyyat işlərinə Vaşinqtonun narahatlıq notları və digər məsələlər Türkiyə ilə Amerika arasında iqtisadi əməkdaşlığın ruhunu zəiflətdi. Ancaq Trampın ilk prezidentliyi dövründə iqtisadi təmaslar daha böyük idi və bu proseslər bilavasitə regionda çoxşaxəli iqtisadi inteqrasiyanı da gücləndirmişdi. Ona görə də, yeni hakimiyyət komandasının ABŞ-Türkiyə münasibətlərinə müsbət təsirlərini fərz etmək mümkündür.

**Azərbaycan-ABŞ münasibətləri üçün yeni imkanlar...**

ABŞ Azərbaycanın yaxın enerji müttəfiqlərindən biridir və Qərbə nəql edilən karbohidrogen resurslarının şaxələnməsində dəstəkləyici mövqeyini nümayiş etdirib. Trampın birinci hakimiyyəti illərində ABŞ şirkətlərinin ölkəmizin enerji sektoruna sərmayə yatırımları da ümidverici olub, digər sahələrdə ABŞ Ticarət Palatasının təşviqedici rolu ilə sərmayələrin axını baş verib. Vaşinqtonun 2021-ci ildən sonrakı siyasətində müəyyən natarazlıqlar səbəbindən iqtisadi proqramlardakı hərarət sabit qalıb. Azərbaycanın ümumi iqtisadi-ticari dövriyyəsinin balansında ABŞ-ın payı 2019-cu ild 2,3 faiz təşkil edibsə, 2023-cü ildə bu göstərici 1,7 faizə bərabər olub.

Trampın prezident seçilməsinin Azərbaycan-ABŞ münasibətlərinin qarşılıqlı hörmət və bərabər əməkdaşlıq ruhunda aparılacağı mümkündür. Azərbaycan regionun iqtisadi güc mərkəzi və Qərbin etibarlı və sadiq enerji partnyoru kimi bütün dövlətlərlə faydalı əməkdaşlıq və hörmət prinsipləri çərçivəsində münasibətlərini gücləndirməkdədir. Ölkəmiz son dövrlərdə yeni iqtisadi və nəqliyyat-tranzit təşəbbüsləri ilə diqqəti cəlb edir, "yaşıl enerji" strategiyası üzrə ABŞ və Avropa ölkələri ilə əməkdaşlıq edir. Bu baxımdan rəqəmsal sənaye və "yaşıl inkişaf" hədəflərinə xüsusi önəm verən ABŞ-la Azərbaycanın iqtisadi münasibətlərinin gündəliyi və keyfiyyətinin də artacağını istisna etmək olmaz.

*E.CƏFƏRLİ*

---

# Avropa Komissiyasının rəhbəri nədən və niyə "gizlənir"?

Azərbaycan, qlobal iqlim dəyişikliyi ilə mübarizədə lider ölkələr sırasında yer almaq üçün yalnız regional səviyyədə deyil, beynəlxalq platformalarda da aktiv iştirak edir. Qlobal iqlim müzakirləri, COP təşəbbüsündə önəmli rol oynaması ölkəmizin həm də bu mövzuda beynəlxalq əməkdaşlığa dəstəyini nümayiş etdirir. Azərbaycan COP29 çərçivəsində karbon emissiyalarının azaldılması, təmiz enerji keçidinin sürətləndirilməsi və davamlı inkişafın təmin edilməsi üçün geniş tədbirlər planı təqdim edir - bu təşəbbüs çərçivəsində ölkənin beynəlxalq səviyyədə gördüyü tədbirlər onun iqlim dəyişikliyi ilə mübarizədə qlobal liderlik mövqeyini daha da gücləndirir.

## Fon der Lyayenin "manipulyasiyası"...

### İqlimə ən çox ziyan vuranlar...

Təəssüfləndirici haldır ki, bəzi beynəlxalq strtukturlar Azərbaycanın bu təşəbbüsündən yayınmaqla qlobal problemin həllində iştirak etmək istəmir. Təbii ki, ortadakı "problem" hər kəsə bəllidir - məsələn, Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayenin COP29-da iştirak etməyəcəyini bəyan etməsi onun məsuliyyətdən yayınmaq cəhdidir. Halbuki Fon der Lyayen bu mövzuda beynəlxalq gündəliyin formalaşmasında iştirak etməli, təmsilçisi olduğu coğrafi regionun məsuliyyətini bölüşməlidir. Axı Aİ ölkələri ümumilikdə 1990-cı ildən bəri karbon emissiyalarını azaltmaq sahəsində mühüm nailiyyətlər əldə etsələr də, hələ də dünyada yüksək karbon emissiyasına malik regionlardan biridir. 2022-ci ildən bu yana Aİ ölkələrinin karbon emissiyaları enerji sektorunda - xüsusən də kömürdən istifadənin artdığı elektrik istehsalında yüksəlib. Bu artım əsasən enerji böhranı və təbii qazın qiymətinin kəskin artımı ilə bağlıdır. Bəzi kömürdən daha çox asılı olan ölkələr bu sektorda yüksək emissiyalarla diqqət çəkir.

Eynilə, nəqliyyat sektoru Aİ-nin iqlimə vurduğu ziyanın əsas "fundamental" səbəblərindən biri kimi önə çəkilir. Aİ-nin istixana qazlarının təxminən 25 faizi nəqliyyat sektorundan qaynaqlanır, xüsusilə avtomobil və yük maşınları yüksək emissiya mənbələridir. 2021-ci ildən sonrakı dövrdə nəqliyyat emissiyaları artmaqda davam edib və Aİ-nin 2030-cu ilə qədər bu sahədə hədəflərinə çatmaq üçün illik emissiya azalmalarını ikiqat artırması tələb olunur. Göründüyü kimi, Fon der Lyayenin Avropa Komissiyası rəhbəri statusunda təmsil etdiyi təşkilatın və onun üzvlərinin məsuliyyəti, yaşıl gündəliyə və çağırışa cavabı maraq doğurur.

### Aİ göstərilən problemlərin həlli üçün...

Halbuki statistik rəqəmlər, göstəricilər real həqiqəti ortaya qoyur - bu gün Aİ iqlim dəyişikliyi məsələsində əsas cavabdehlərdəndir. Aİ-nin istixana qazı tullantılarına metan, azot oksidləri və digər zəhərli qazlar daxildir. Xüsusən kənd təsərrüfatı və tullantı sektorlarında metan emissiyaları narahatlıq doğurur. 2023-cü ildə Aİ-nin "Fit for 55" planı çərçivəsində üzv ölkələr kənd təsərrüfatında emissiyaları azaltmaq üçün yeni tədbirlər qəbul etməyi nəzərdə tutublar.

Paralel olaraq meşələrin kəsilməsi və təbii torpaq resurslarının məhv edilməsi Avropanın karbon udma qabiliyyətinə mənfi təsir göstərir. Məsələn, İspaniya, Portuqaliya və Yunanıstanda baş verən meşə yanğınları Aİ-nin təbiətə vurduğu ziyanı daha da artırıb. Meşə yanğınları nəticəsində atmosferə buraxılan karbon miqdarı artıb və ekosistemlərə ciddi zərər vurulub. Aİ meşələrin bərpası və torpağın qorunması üzrə addımlar atsa da, bu sektor hələ də yüksək risk altında qalır.

Avropa həm də plastik tullantılar və dəniz çirklənməsi ilə mübarizə aparmalıdır - hər il Aİ-də milyonlarla ton plastik tullantı meydana çıxır və bunların böyük bir qismi təbiətə, xüsusilə dənizlərə və çaylara buraxılır. Xüsusilə Aralıq dənizi sahilləri və Baltik dənizi plastik tullantılarla çirklənib. Aİ üzv ölkələri dəniz çirklənməsi ilə mübarizə üçün qanunlar qəbul etsə də, tullantıların azaldılması və təkrar emalın artırılması sahəsində daha çox tədbir tələb olunur.

Bütün bu problemlərdən qaçmaq olmaz - tam əksinə, beynəlxalq aləmin iştirakı ilə bu çətin situasiyadan qurtulmağın yolları axtarılmalıdır. Azərbaycan məhz bu platformanı təqdim və təklif edir - bu təklifdən yayınmaq bütövlükdə iqlimin təmizlənməsi, təbiətin qorunması prosesindən yayınmaq deməkdir ki, bu da qlobal cinayətə bərabərdir. Çünki göstərilən problemlərin həlli üçün Aİ-dən 2030 və 2050 iqlim hədəflərinə çatmaq məqsədilə daha güclü qanunvericilik və təbii resursların qorunması tədbirləri tətbiq olunması vacibdir - Fon der Lyayenin "yayınma taktikası" isə onu göstərir ki, Aİ prosesləri skeptik şəkildə dəyərləndirir...

### Aİ-nin iqlim komissarı Fon der Lyayeni ifşa edir...



Ən təzadlı məqam isə Aİ-nin ayrı-ayrı rəsmilərinin "SOS" səsləndirdiyi bir vaxtda Fon der Lyayenin nümayiş etdirdiyi "susqunluq" və ya "boyun qaçırmasıdır". Halbuki az müddət öncə Pre-COP29: Ambisiyaların Yüksəldilməsi və Fəaliyyətin Aktivləşdirilməsi çərçivəsində keçirilən panel müzakirəsində iştirak və çıxış edən Aİ-nin İqlim Fəaliyyəti üzrə Komissarı Vopke Hoekstra bildirmişdi ki, gələcək nəsillər iqlim dəyişikliyi ilə mübarizənin çətin olması bəhanəsini qəbul etməyəcək. O demişdi ki, bizim seçimimiz yoxdur. Sitat: "Burada yaxşı, ya pis seçimimiz yoxdur. Bizim artıq 2035-ci ilə qədər məqsədlərimiz var. 2050-ci ilə qədər xalis 0 məqsədinə nail olmalıyıq. Gördüyümüz işlərin elmi əsasları olmalıdır. Biz prosesləri sürətləndirməliyik. İqlim dəyişikliyinin həm Yer kürəsinə təsirini, həm də ölkələrin nə etməli olduğunu bilməliyik. Biz iqlim dəyişikliyinin təsirini qiymətləndirməliyik. 3 ay ərzində sorğular keçirmişik. Sorğu nəticəsi göstərir ki, daha cəsarətli addımlara ehtiyac var. Biz 90 faiz hədəfləri 2040-cı ilə qədər çatdırmaq istəyirik. Aİ ilə digər ölkələrin əməkdaşlığı ilə məqsədləri reallığa çevirməliyik".

Bu, Aİ-nin İqlim Fəaliyyəti üzrə Komissarının fikirləridir. Fon der Lyayenin "cığallığı" və COP29 kimi tədbirdən boyun qaçırması isə səslənən bu qlobal məsələlərə laqeydliyini sübuta yetirir...

*P.İSMAYILOV*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**







# 3 gün qaldı...

## COP29 günlərində nəqliyyat necə tənzimlənəcək?

**Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) ölkəmizdə keçirilməsinə sayılı günlər qalıb. Noyabrın 11-22-də keçiriləcək iqlim konfransı üçün paytaxtda ciddi hazırlıq işləri görülür. Tədbirlə əlaqədar Bakının nəqliyyat sektorunda bir sıra dəyişikliklər tətbiq ediləcək. Belə ki, COP29 günlərində paytaxtda fərdi nəqliyyat vasitələri və ictimai nəqliyyatın hərəkətində müəyyən dəyişikliklər nəzərdə tutulur.**

## Avtobusların hərəkət sxemi dəyişdirildi

COP29 günlərində Bakıda 57 marşrut üzrə avtobusların hərəkət sxemi dəyişdiriləcək. Bakı metrosunun "Koroğlu" stansiyasının ətrafından "Piramida" adlanan ərazidən yalnız 163, 184 və 214 nömrəli avtobus marşrutları fəaliyyət göstərəcək. Bu marşrutlar paytaxtın Ramanı, Zabrat qəsəbələri, Suraxanı rayonu istiqamətində sərnişindaşımanı təmin edəcəklər. Yolun əks tərəfi isə COP29 əməliyyatları üçün istifadə olunacaq. Şəhərin mərkəzi hissələrindən "Koroğlu" metro stansiyasına gələn təqribən 12-yə yaxın marşrut üzrə avtobuslar metronun "Ulduz" stansiyası istiqamətinə, qalan marşrutlar isə "Qara Qarayev" və digər metrostansiyalara doğru yönəldiləcək. COP29 tədbirinin keçiriləcəyi ilk dörd gün ərzində Bakıda 10-dan çox marşrut xətti üzrə avtobusların hərəkəti dayandıralacaq. Dəyişikliklərin tərkib hissəsi olaraq artıq noyabrın 4-dən paytaxtda sərnişindaşımanı həyata keçirən 33 sayda müntəzəm marşrutun son və aralıq dayanacaq məntəqələri dəyişdirilib. Bunlar 1, 24, 93, 163, 60, 13, 184, 197, 198, 7B, 38, 71, 107, 118A, 118B, 131, 139, 173A, 173B, 189, 204, 216, 217, M8, 15, 148, 162, 166, 38, 62, 70, 184, 214 nömrəli marşrut xətləridir. 9-24 noyabr tarixlərində COP29 iştirakçıları üçün avtobuslardan istifadə ödənişsiz olacaq.

## Paytaxta girişdə qismən məhdudlaşma...

COP29 günlərində Azərbaycanın bölgələrindən rayon qeydiyyatlı avtomobillərin paytaxta gəlməsi üçün məhdudiyyət olmayacaq. Həmçinin, bölgələrdən gələn avtomobillər üçün şəhərin giriş postlarında yoxlamalar aparılmayacaq.

Bakıda bir sıra küçə və prospektlər üzrə nəqliyyatın hərəkət istiqaməti dəyişdiriləcək. Belə ki, Bakı-Salyan yolunun 14-cü kilometrliyindən şəhərə daxil olan nəqliyyat vasitələri Lökbatan dairəsi yaxınlığında təşkil olunan nəzarət postundan Bakı kənar dairəvi yolu istiqamətinə yönəldiləcək və oradan Badamdar istiqamətinə gedə biləcəklər. Yasamal və "Şamaxinka" adlanan əraziyə daxil olmaq istəyən sürücülər isə bu istiqamətlərdə təşkil olunacaq postlardan fasilələrlə buraxılacaqlar. Beləliklə tədbir vaxtı Bakıda nəqliyyatın əsas hissəsi Biləcəri, Avtovağzal və Sumqayıt istiqamətinə yönəldiləcək. Şamaxı-İsmayıllı istiqamətindən gələn nəqliyyat vasitələrinin hərəkəti Müşfiqabad-Xocəsən yolunda təşkil olunacaq postlarda qismən məhdudlaşdırılacaq. Onlar "Şamaxinka" ərazisindən geriyə dönmə ilə Ziya Bünyadov prospekti istiqamətində fasilələrlə buraxılacaqlar. Quba-Sumqayıt istiqamətindən hərəkət edən nəqliyyatın hərəkəti Sumqayıt şəhərinin girişində yerləşən yanacaqdoldurma məntəqəsinin yanında təşkil olunacaq postda müvəqqəti azaldılacaq, fasilələrlə buraxılacaq. Sumqayıt-Novxanı istiqamətindən gələn nəqliyyat vasitələri isə Binəqədi-Baksol yolunda təşkil olunacaq postdan fasilələrlə buraxılacaq.

## Bu avtomobillərə stikerlər verilib

Xatırladaq ki, noyabrın 1-dən etibarən COP29 zolaqlarından yalnız xüsusi xidmət və tədbir avtomobilləri, ictimai nəqliyyat vasitələri istifadə edir. Bunun üçün xüsusi xidmət və tədbir avtomobillərinə müəyyən stikerlər və nəqliyyatın buraxılış və parklanma icazəsi vərəqələri verilib.






## Metro necə işləyəcək?

Bakı metrosunun stansiyaları 11-13 noyabr tarixlərində səhər saat 05:00-dan sərnişinlərin girişinə açıq olacaq. Həmin günlər ölkəmizdə qeyri-iş günü elan edilsə də, metroda qatarların hərəkət qrafiki adi iş günlərinə uyğun qurulacaq. Qeyd edilən 3 gündə Qırmızı xəttin "Həzi Aslanov-28 May" sahəsində qatarların hərəkəti səhər saatlarında 07:00-dan 10:00-dək, axşam saatlarında isə 17:30-dan 19:30-a qədər 2 dəqiqə təşkil edəcək. Yaşıl və Qırmızı xətlərin birləşdiyi "28 May" stansiyasından "Dərnəgül" (Yaşıl xətt) və "İçərişəhər" (Qırmızı xətt) istiqamətlərində qatarların hərəkət intervalı 2 dəfə çox olacaq.

"Həzi Aslanov-28 May" sahəsində interval günorta vaxtı 2,5 dəqiqə, səhər erkən və sərnişinlərin əsaslı şəkildə azalmağa başladığı gecə saatlarına doğru 3 dəqiqə və daha çox təşkil edəcək. İstirahət günlərində qatarlar arasında interval fərqli qaydada tənzimlənəcək: saat 7:00-dan 21:00-a qədər olmaqla, şənbə günləri 2,5 dəqiqə, bazar günləri isə eyni saatlarda 3 dəqiqə təşkil edəcək. Bənövşəyi xətt üzrə qatarlar arasında intervallar "Avtovağzal-8 Noyabr" sahəsində 8 dəqiqə, "Xocəsən-Avtovağzal" yol mənzilində isə əsasən, 16 dəqiqə təyin edilib. "Bakmil" stansiyasına və əksinə qatarların hərəkət cədvəlləri noyabr ayının 11-13-də iş günləri qrafikinə uyğun tənzimlənəcək. COP29-un keçiriləcəyi digər günlərdə metroda qatarların hərəkəti ənənəvi payız-qış qrafikinə uyğun tənzimlənəcək. 6-22 noyabr tarixlərində COP29 iştirakçıları üçün metrodan istifadə ödənişsiz olacaq.

## Dəmir yolu reysləri dəyişdirilib

"Azərbaycan Dəmir Yolları" QSC-nin bütün strukturları, 1 noyabr tarixindən etibarən gücləndirilmiş iş rejiminə keçib. 11-23 noyabr tarixlərində Bakı-Xırdalan-Sumqayıt-Bakı marşrutu üzrə qatarların hərəkət qrafikinə dəyişiklik edilib. Belə ki, Bakıdan saat 08:10, 17:50 və 19:05, Sumqayıtdan saat 07:20, Xırdalandan isə saat 08:40 və saat 18:20 reysləri müvəqqəti olaraq ləğv edilməklə qeyd olunan tarixlərdə (17 noyabr həftəsonu istisna olmaqla) qatarlar iş günü qrafiki əsasında hərəkət edəcək. Xırdalan istiqamətində və Bakı-Pirşağı-Sumqayıt-Bakı marşrutu üzrə hərəkət edən digər qatarların hərəkət qrafiki dəyişiklik edilmədən qüvvədə saxlanılır. 9 -24 noyabr tarixlərində COP29 tədbiri ilə bağlı akkreditasiyadan keçmiş bütün şəxslər dəmiryol nəqliyyatından pulsuz istifadə edə biləcək.

## Şəhər daxilində hərəkət dəyişdiriləcək

Şəhər daxilində bəzi küçə və prospektlərdə nəqliyyat vasitələrinin hərəkət istiqaməti dəyişdiriləcək. Mərkəzdən Hava Limanı istiqamətinə hərəkət edən nəqliyyat vasitələri Nizami küçəsindən istifadə etməklə Yusif Səfərov küçəsi, İzzət Orucov küçəsi, Fəzail Bayramov küçəsindən keçməklə sola doğru hərəkət edərək 8 Noyabr prospektinə çıxıb oradan Zığ yolu ilə Hava Limanı istiqamətində gedə biləcəklər. Heydər Əliyev prospektindən əlavə köməkçi yolla Bakıxanov qəsəbəsi ərazisindən keçərək Sabunçu-Zabrat istiqamətində hərəkət edənlər "Koroğlu" metro stansiyasının yanından sağ zolaqla Bəşir Bünyadov küçəsi, Yavər Əliyev küçəsi və oradan da sola doğru Asif Əsədullayev küçəsindən keçməklə "Komsomol" körpüsünün altından Sabunçu-Zabrat yoluna çıxa biləcəklər. Koroğlu Rəhimov və ya Xətai Dəmirçizadə küçəsindən mərkəz istiqamətində hərəkət edən nəqliyyat vasitələri Yusif Səfərov və 10-cu Zavod küçəsindən istifadə etməklə Bakı Şəhər Baş Polis İdarəsinin inzibati binasının arxası ilə hərəkət edib Dilarə Əliyeva küçəsinə, oradan da Rəşid Behbudov küçəsinə çıxa biləcəklər. Bilgəh kardioloji sanatoriyası tərəfdən, həmçinin Maştağa qəsəbəsi "Albalılıq" kimi tanınan ərazidən Hava Limanı istiqamətində gəlmək istəyənlər Mərdəkandan keçərək Şüvəlan istiqamətindən Qala dairəsinə, oradan da Zığ şosesinə çıxmaqla hərəkət edə biləcəklər. Hava Limanı istiqamətindən gələn sürücülər isə Zığ şosesindən 8 noyabr prospektinə keçməklə Afyəddin Cəlilov küçəsi, Fəzail Bayramov küçəsi və Mehdi Mehdizadə küçəsi ilə hərəkət edəcəklər. Sabunçu rayonu istiqamətindən şəhərə istiqamətlənən sürücülər Balaxanı yolu ilə Binəqədi ərazisini keçməklə şimal istiqamətinə və mərkəzə gedə biləcəklər.

COP 29 günlərində Bakının Mətbuat, Hüseyn Cavid, İnşaatçılar, Ziya Bünyadov, Atatürk, Babək, Qara Qarayev, Tbilisi, Azərbaycan, Parlament prospektləri, Fətəli Xan Xoyski, Cəfər Cabbarlı, Abbasmirzə Şərifzadə və İstiqlaliyyət küçələri nəqliyyatın hərəkətinə tam açıq olacaq. Tbilisi prospektində yalnız Şəfaət Mehdiyev küçəsi ilə İzmir küçəsinin kəsişməsində nəqliyyatın hərəkəti müvəqqəti məhdudlaşdırılacaq.

## Hava limanından daşımalar necə olacaq?

Tədbirin ilk üç günündə Heydər Əliyev adına Bakı Beynəlxalq Hava Limanından şəhərin mərkəzinə şəxsi nəqliyyat vasitəsi ilə gəlmək mümkün olmayacaq. Xaricdən Bakıya gələn yerli və əcnəbi vətəndaşlar aeroportda fəaliyyət göstərəcək H1 və H2 nömrəli avtobuslardan istifadə etməli olacaqlar. H1 xətti üzrə marşrut 10 dəqiqəlik intervalla hava limanı - "28 May" ərazisini, H2 xətti üzrə marşrut isə 15 dəqiqəlik intervalla hava limanı - "Əhmədli" metrosu stansiyasını əhatə edəcək. Lakin nəqliyyat vasitələri aeroportun ərazisinə daxil ola, insanları düşürə biləcəklər. 10-14 noyabr tarixlərində yalnız aviabileti olan sərnişinlər Terminal 1 və Terminal 2-yə daxil ola biləcəklər.

Tədbir iştirakçılarını gedəcəkləri ünvana çatdırmaq üçün 16 nəqliyyat qovşağı fəaliyyət göstərəcək. Qovşaqlar hotellərin və iştirakçıların yerləşdirildiyi yaşayış komplekslərin olduğu sahələrdə yaradılacaq.

## COP29 zolaqları...

Qeyd edək ki, COP29-la əlaqədar paytaxt yollarında xüsusi hərəkət zolaqları təşkil edilib. 1 noyabr tarixindən 26 küçə və prospektdə - Neftçilər, Heydər Əliyev, Xocalı, Şah İsmayıl Xətai, Parlament, Bülbül və Azadlıq prospektləri, Zuğulba yolu, Hava limanı, Zığ və Salyan şosələri, Bünyad Sərdarov, Həsən Seyidbəyli, Şeyx Şamil, Mirzəağa Əliyev, Həsənoğlu, Mikayıl Üseynov (Bayraq meydanı istiqamətində), Gülarə Qədirbəyova, Niyazi, İstiqlaliyyət, Üzeyir Hacıbəyli, Koroğlu Rəhimov, Mehdi Hüseyn, Mikayıl Müşfiq, Həsən Əliyev və Fətəli Xan Xoyski küçələrində təşkil edilən zolaqlara daxil olmaq qadağan olunub. COP29 zolaqlarından yalnız xüsusi xidmət və tədbir avtomobilləri, qırmızı elektriklə işləyən taksilər və ictimai nəqliyyat vasitələri istifadə edə bilər. Bunun üçün xüsusi xidmət və tədbir avtomobillərinə müəyyən stikerlər, nəqliyyatın buraxılış və parklanma icazəsi vərəqələri verilib. Bununla yanaşı təcili tibbi yardım avtomobilləri də COP 29 zolaqlarından istifadə edə biləcəklər.

*Yeganə BAYRAMOVA*

# İdman

## Azərbaycanı Avropa çempionatında 22 şahmatçı təmsil edəcək




Noyabrın 8-də Monteneqronun Petrovaç şəhərində şahmat üzrə şəxsi Avropa çempionatına start veriləcək.

AZƏRTAC xəbər verir ki, Azərbaycan qitə çempionatında 22 şahmatçı ilə təmsil olunacaq. Yarışda Rauf Məmmədov, Eltac Səfərli, Aydın Süleymanlı, Məhəmməd Muradlı, Vüqar Rəsulov, Vasif Durarbəyli, Əhməd Əhmədzadə, Misrətdin İsgəndərov, Riad Səmədov, Namiq Quliyev, Xəzər Babazadə, Vüqar Manafov, Xaqan Əhməd, Gövhər Beydullayeva, Ayan Allahverdiyeva, Şiroğlan Talıbov, Orxan Abdulov, Allahverdi Həmidov, Şahin Vəliyev, Ümid Aslanov, Elcan Əbdülkərimli, Orxan Bağırov və Kamran Vəlizadə mübarizə aparacaqlar.

Qeyd edək ki, noyabrın 19-da yekunlaşacaq Avropa çempionatında ümumilikdə 42 ölkə təmsil olunur.

## Akrobatika gimnastikası üzrə Azərbaycan çempionatı və Bakı birinciliyi start götürüb




Akrobatika gimnastikası üzrə 29-cu Azərbaycan çempionatı və Bakı birinciliyi start götürüb.

AZƏRTAC xəbər verir ki, yarışdan öncə rəsmi açılış mərasimi keçirilib. Heydər Əliyev adına İdman Konsert Kompleksində reallaşan tədbir Azərbaycan Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Turnirdə Bakı Gimnastika Məktəbi, "Ocaq Sport" Klubu, "Neftçi" İdman Klubu, 13 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbindən ümumilikdə 73 idmançı qüvvəsini sınayır.

Çempionatda qadın cütlükləri (uşaqlar 2008-2013; balacalar 2009-2018-ci il), kişi cütlükləri (böyüklər 2009-cu il və daha böyük), qarışıq cütlüklər (böyüklər 2009-cu il və daha böyük), qadın qrupları (uşaqlar 2008-2013; yeniyetmələr 2006-2012; gənclər 2005-2010; böyüklər 2009-cu il və daha böyük) və kişi qrupları (yeniyetmələr 2006-2012; böyüklər 2009-cu il və daha böyük) balans, temp və qarışıq hərəkətlər proqramında medallar uğrunda mübarizə aparırlar.

Qeyd edək ki, 29-cu ölkə çempionatı və Bakı birinciliyinə noyabrın 9-da yekun vurulacaq.





## Azercell-dən Zəfər Gününə özəl təklif

***Lider mobil operatordan "HONOR" cihazları əldə edən abunəçilərə "SuperSən6GB" tarif paketinə iki aylıq abunəlik hədiyyə***

Azercell noyabr ayının 8-i Zəfər Gününə özəl kampaniyaya start verir. Kampaniya çərçivəsində "Azercell Eksklüziv" və diller mağazalarından HONOR" smartfonu və ya planşeti əldə edən müştərilərə "SuperSən6GB" tarif paketinə iki aylıq abunəlik həddiyə edilir. Qeyd edək ki, kampaniya 229 AZN-dən başlayan cihazlara şamil olunur.

Qeyd edək ki, kampaniyadan 17.11.2024 tarixinədək yararlanmaq mümkündür.

Kampaniya haqqında ətraflı məlumat üçün www.azercell.com ünvanına keçid etməyiniz xahiş edilir.

"Azercell Telekom" MMC Azərbaycan xalqını Zəfər Gününün dördüncü ildönümü münasibətilə təbrik edir!



Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4809**
**Sifariş: 2581**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli